RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 213 (9092) ŞƏNBƏ, 1 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanla Bolqarıstan dost və strateji tərəfdaş ölkələr kimi bir-biri ilə sıx əlaqədədirlər

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri



### Rəsmi qarşılanma



→ 2

### Naməlum əsgərin məzarını ziyarət



→ 2

### Təkbətək görüş



→ 2

### Geniş tərkibdə görüş



→ 2

### Mətbuata bəyanat



→ 2

### Prezidentin şərəfinə nahar



→ 3

### Biznes nümayəndələri ilə görüş



→ 3

### Rəsmi şam yeməyi



→ 4

### Hava limanında qarşılanma



→ 4

## İlham Əliyevin sülh gündəliyi regionda davamlı sabitliyin təminatıdır

→ 8

## Xalqımız Heydər Əliyevi hər zaman minnətdarlıqla anacaq

→ 6

## Parlamentin payız sessiyası işinə başladı

→ 5

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

# Azərbaycanla Bolqarıstan dost və strateji

## Rəsmi qarşılanma





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 30-da Bolqarıstanın paytaxtı Sofiya şəhərinin Aleksandr Nevski meydanında rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Bolqarıstanın Dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Bolqarıstan Prezidenti Rumen Radev qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Bolqarıstanın Dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezident İlham Əliyev Bolqarıstan əsgərlərini salamladı.

Bolqarıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Rumen Radevə təqdim olundu.

Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.

## Naməlum əsgərin məzarını ziyarət



Sentyabrın 30-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.

## Təkbətək görüş



Sentyabrın 30-da Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevlə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Sonra dövlət başçıları söhbət etdilər.

## Geniş tərkibdə görüş



Sentyabrın 30-da Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentini salamlayan Bolqarıstan Prezidenti **Rumen RADEV** dedi:

- Hörmətli cənab Prezident, bu gün Sizi və Sizin nümayəndə heyətinizi Bolqarıstanda salamlamağa çox şadam.

Biz bu səfəri bir imkan kimi dəyərləndiririk ki, biz Sizin qonaqpərvərliyinizə qarşılıq verə bilək. Biz ikitərəfli münasibətlərimizi müzakirə edəcəyik və müəyyən çağırışların öhdəsindən gəlmək üçün müəyyən imkanları nəzərdən keçirəcəyik. Biz Azərbaycanla sıx dostluq, qarşılıqlı hörmət münasibətlərinə malikik. Bizim ən yüksək səviyyədə siyasi dialoqumuz il ərzində çox fəal olub, münasibətlərimiz artıq strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bizim üçün Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır. Əminəm bizim qarşılıqlı marağımız var ki, bütün sahələr üzrə praqmatik və səmərəli münasibətlərimizi inkişaf etdirək.

Sizin ölkəmizə səfəriniz böyük rəmzi mənaya malikdir. Çünki bu, bizim diplomatik münasibətlərimizin qurulmasının 30 illiyinə təsadüf edir. Bununla yanaşı, digər maraqlı və çox əlamətdar bir hadisəyə şahidlik edəcəyik. Biz Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışını edəcəyik. Bu, həm bizim üçün, həm Avropa qitəsi üçün strateji əhəmiyyətə malik bir layihədir. Çünki bununla Avropanın enerji xəritəsini yenidən cızırıq. Biz artıq Azərbaycandan real olaraq təbii qaz alacağıq. Bu da təbii ki, bizim təminatı və təchizatı şaxələndirəcəkdir.

Biz enerji sahəsində əməkdaşlığımıza çox böyük əhəmiyyət və çox böyük önəm veririk. Amma, əlbəttə, biz görüşümüzdə təkcə enerji sahəsini deyil, digər strateji sahələri də müzakirə edəcəyik. İnnovasiya, yüksək texnologiyalar, ticarət, sərmayə qoyuluşu və təbii ki, mədəniyyət, elm sahələri də buraya daxildir. Bunlar da bizim əməkdaşlığımızın dərinləşməsinə xidmət edəcəkdir.

Bir daha Sizi salamlayıram.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm, hörmətli cənab Prezident. İlk növbədə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən gözəl ölkənizdə olmağımdan da çox məmnunam, dəvətə görə təşəkkür edirəm.

Siz tamamilə haqlı qeyd etdiniz ki, Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar. Strateji tərəfdaşlıq haqqında bəyannamə yeddi il bundan əvvəl imzalanıb və bu illər ərzində bu strateji tərəfdaşlıq demək olar ki, bir çox sahələrdə özünü göstərmişdir. Mən Sizin Azərbaycana rəsmi səfərinizi xatırlayıram. Səfər zamanı apardığımız müzakirələr və qəbul etdiyimiz qərarlar həyatda öz əksini tapır. Qeyd etdiyiniz kimi, sabah Bolqarıstanda çox önəmli hadisə baş verəcək - biz Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsinin başlanğıcını qeyd edəcəyik. Bu münasibətlə bəri başdan Sizi təbrik edirəm.

Bizim bütün sahələrdə əməkdaşlığımızın təməlində səmimi münasibətlər dayanır. Bolqarıstan-Azərbaycan əlaqələri çoxşaxəli əlaqələrdir. Xalqlarımız arasındakı tarixi bağlar, əlbəttə ki, bu əlaqələrin təməlində dayanan mühüm amildir. Bu gün, əlbəttə ki, qarşılıqlı maraqlar üzərində qurulmuş o strateji tərəfdaşlıq yeni imkanlar açır. Çünki enerji sahəsində başlanılan çox ciddi əməkdaşlığın çox böyük gələcəyi var. Biz bu işin birinci mərhələsindəyik. Əminəm ki, bu gün Sizinlə təkbətək görüşdə müzakirə etdiyimiz mövzularla bağlı gələcəkdə praktiki addımlar atılacaq. Azərbaycan etibarlı qaz təchizatçısı kimi Avropa ölkələri üçün önəm daşıyan ölkədir. Bizim üçün də Avropa bazarı, o cümlədən Bolqarıstan və Sizin qonşu ölkələrin bazarları böyük maraq kəsb edir.

Amma haqlı qeyd etdiyiniz kimi, təkcə enerji məsələləri deyil, digər sahələrdə də yaxşı nəticələr var. Humanitar sahəni xüsusilə qeyd etməliyəm. Nəqliyyat sahəsində "Orta dəhliz"in həyata keçirilməsi, "Şərq-Qərb" nəqliyyat dəhlizinin fəaliyyəti, əlbəttə ki, ölkələrimizi bir-birinə daha da sıx bağlayacaq. Əminəm ki, gələcəkdə təmaslarımız çox olacaq və bizim onsuz da geniş olan gündəliyə yeni məsələlər daxil ediləcəkdir.

Dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm.

## Mətbuata bəyanat



*Sentyabrın 30-da geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Bolqarıstan Prezidenti bəyanatla çıxış etdi.*

### Prezident Rumen Radevin bəyanatı

- Hörmətli cənab Prezident.

Xanımlar və cənablar.

Bu gün mən böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi - Bolqarıstanın dostunu salamlayıram. Biz ənənəvi olaraq dostluq münasibətlərinə malikik, həqiqi və səmimi əməkdaşlıq edirik. Cənab Əliyev və mən ikitərəfli münasibətlərimizi, onların mövcud vəziyyətini, qarşımızda duran çağırışları müzakirə etdik və əlbəttə ki, yeni imkanları nəzərdən keçirdik.

Böyük məmnuniyyətlə deyə bilərəm ki, ölkələrimiz arasında ən yüksək səviyyədə çox fəal siyasi dialoq var. Biz artıq bunun sayəsində münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışıq. Azərbaycan bizim üçün arzuolunan, etibarlı tərəfdaşdır. Mən çox şadam ki, bu məsələdə də mövqelərimiz üst-üstə düşür və biz həmin bu praqmatik və səmərəli əməkdaşlığımızı bir çox sahələr üzrə irəli aparmaq niyyətindəyik.

Cənab Əliyevin bu rəsmi səfərinin ikiqat rəmzi var. Birincisi, biz bu il diplomatik münasibətlərimizin 30 illiyini qeyd edirik. İkincisi, bu səfər çərçivəsində sabah - oktyabrın 1-də biz rəsmi olaraq Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışını qeyd edəcəyik. Həmin interkonnektor - bu strateji layihə həm bizim ölkə, həm də Şərqi Avropa üçün çox mühüm layihədir. Bu interkonnektor bizə ilk dəfə olaraq Azərbaycandan təbii qaz almağa imkan verəcək. Bu, təbii ki, Avropanın enerji xəritəsini dəyişdirəcək. Bu, elə bir infrastruktur layihəsidir ki, biz təkcə ölkələrimiz arasında deyil, bütün regionda iqtisadi əməkdaşlığı inkişaf etdirə biləcəyik. Həmin bu layihə vasitəsilə biz strateji tərəfdaşlığımızı bir daha təsdiq edirik. Mən cənab Əliyevə təşəkkür edirəm ki, biz bu məsələyə sadiqlik və əzm sayəsində, vaxtilə imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamə əsasında bu gün münasibətlərimizi inkişaf etdiririk.

Daha bir vacib məsələni də diqqətinizə çatdırmaq istərdim ki, mən dünən aldığım bir təklifi cənab Əliyevlə bölüşdüm. Bolqarıstandan əlavə, Avropanın daha 3 ölkəsi - Rumıniya, Macarıstan və Slovakiya bizə müraciət edib ki, əlavə qaz həcmini almaq və nəql etmək istəyirlər. Bu ilin yayında - iyul ayında cənab Əliyev və xanım Fon der Lyayen sənəd imzalayıblar. Həmin sənədə əsasən yeni yanaşma tətbiq edilməlidir. Bunun sayəsində biz illərlə gözləmək əvəzinə, - bilirsiniz ki, burada mövcud infrastrukturu genişləndirmək üçün böyük sərmayə lazımdır, - həmin bu 4 ölkədə olan infrastruktur vasitəsilə Azərbaycan qazını dərhal digər ölkələrə göndərə bilərik. Beləliklə də, qaz daha tez və etibarlı şəkildə mərkəzi, qərbi və Cənubi Avropaya çatdırıla bilər. Bu təklif sabah rəsmi olaraq təqdim ediləcək. Biz bunu Avropa Komissiyasının prezidenti və bu 4 ölkənin nümayəndələri ilə müzakirə edəcəyik. Biz buna hazırıq. Bir ay ərzində yüksəksəviyyəli görüş təşkil edə bilərik. Bununla da layihəni irəli apara bilərik, bu layihəyə start verə bilərik.

Hazırda qaza olan yüksək tələbat və böhran şəraitində yeni imkanlar axtarışındayıq. Prezident Əliyev və mən müxtəlif məsələləri, müxtəlif fikirləri müzakirə etdik. Çünki bizə sement istehsalında, şüşə istehsalında və digər istehsalat sahələrində qaz lazımdır. Azərbaycan da müxtəlif məhsullar istehsal edir. Beləliklə, biz birbaşa Azərbaycandan qaz həcmi ala biləcəyik. Bu, çox vacib bir məsələdir və bu qaz bizim vasitəmizlə artıq üçüncü ölkələrin bazarlarına nəql edilə bilər. Biz burada nəqliyyat xərclərinə və vaxta qənaət edirik. Bu prosesdə Bolqarıstan daha fəal iştirak edəcək və bizim qaz şirkətimiz olan "Bulqarqaz" da daha fəal rol oynayacaq. Biz təbii ki, bu məsələni cənab Əliyevlə yenə də müzakirə edəcəyik ki, bizim imkanlarımız nədən ibarətdir, hansı variantlarımız var. Biz bu məsələdə maraqlıyıq və təbii qazı elektrik enerjisinə çevirmək məsələsini də nəzərdən keçirəcəyik. Bu, təkcə Bolqarıstan üçün deyil, həm də Avropa İttifaqı üçün mühüm məsələdir. Əlbəttə ki, Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu çox mühüm əhəmiyyətə malikdir.

Biz müzakirələrimizdə təkcə enerji məsələsi ilə kifayətlənmədik. Biz yeni imkanları, digər innovativ sahələrdə əməkdaşlıq imkanlarını axtaracağıq. Məsələn, informasiya texnologiyaları və süni intellekt. Əlbəttə ki, hazırda bizim qarşımızda "yaşıl enerji", karbon neytrallığı ilə bağlı müəyyən çağırışlar var. Bunun üzərində də çalışacağıq. Bununla yanaşı, biz gübrə istehsalını nəzərdən keçirdik. Bizim avtomobil və ehtiyat hissələrinin istehsalı sahələrində böyük potensialımız var. Biz bir yerdə, əl-ələ verərək bu sahələrdə də çalışa bilərik. Kənd təsərrüfatı, qida istehsalı, əczaçılıq da çox maraqlı sahələrdir.

Digər vacib sahələr elm, təhsil və mədəniyyətdir. Bununla biz xalqlar arasında təmasları, mübadiləni gücləndirə, iqtisadiyyat, sərmayə sahələrində əməkdaşlığımıza yeni perspektivlər əlavə edə bilərik.

Bu fürsətdən istifadə edərək Prezident Əliyevə təşəkkür etmək istərdim ki, o, öz vədinə sadiq qaldı və biz Bakıdan Sofiyaya birbaşa uçuşlar təşkil edirik. Ümid edirəm ki, biz turist axınını gücləndirəcəyik. İnanıram ki, pandemiya tam başa çatandan sonra bu uçuşlar fəal və intensiv olacaq.

Mədəniyyət sahəsinə gəldikdə, biz Heydər Əliyev Fondunun töhfəsini heç vaxt unutmuruq. Bizim mədəni irsimizin mühafizə edilməsi, qorunması sahəsində tarixi paytaxtımız olan Veliko Tırnovoda reallaşdırılan layihədən söhbət gedir.

Biz Prezident Əliyevlə müzakirə etdik ki, işçi səviyyədə də təmaslar daha fəal olsun. Çünki çoxsaylı imkanlarımız var və biz burada daha operativ olmalıyıq, bir yerdə çalışmalıyıq, bir yerdə düşünməliyik. Geosiyasi, regional vəziyyət nəzərdən keçirilib. Biz mövcud vəziyyəti nəzərə alaraq daha çevik qərarlar qəbul etməliyik ki, bu, bizim xalqlarımızın, ölkələrimizin mənafeyinə uyğun olsun.

Biz SOCAR-ın Bolqarıstanda nümayəndəliyinin açılması məsələsini də müzakirə etdik. Hesab edirəm ki, bu da bizim səmərəli əməkdaşlığımızın əlaməti ola bilər.

Prezident Əliyev, bu, bizim müzakirələrimizin bir hissəsidir. Mən əminəm ki, Sizin bugünkü səfəriniz həm bizim ikitərəfli münasibətlərimizə təkan verəcək, həm də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığı inkişaf etdirəcəkdir. Biz hər zaman humanitar baxımdan, coğrafi baxımdan Azərbaycana yaxın olmuşuq. Əminəm ki, qarşımızda duran vəzifələri uğurla həyata keçirəcəyik.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

*Bax: səh. 3*

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

# tərəfdaş ölkələr kimi bir-biri ilə sıx əlaqədədirlər

## Mətbuata bəyanat

### Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə cənab Prezident, məni Bolqarıstana dəvət etdiyiniz üçün, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Prezident Radev bu gün müzakirə olunan məsələlər haqqında geniş məlumat verdi. Öz tərəfimdən onu əlavə etmək istərdim ki, bizim həm təkbətək söhbətimiz, həm də nümayəndə heyətlərinin iştirakı ilə gedən müzakirələrdə səmimi şəraitdə bir çox məsələlər müzakirə edildi. Əminəm ki, bu səfərin nəticələri çox uğurlu olacaq və bu gün əldə edilmiş razılaşmalar mütləq yerinə yetiriləcəkdir, necə ki, bundan əvvəlki dövrlərdə əldə edilmiş razılaşmalar yerinə yetirilirdi. Xüsusilə 2015-ci ildə Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu bəyannamə həm bizim əlaqələrimizi yüksək səviyyəyə qaldırmışdır, eyni zamanda o bəyannamədə təsbit edilmiş bütün məsələlər həyatda öz əksini tapmışdır. Bu gün Bolqarıstan və Azərbaycan iki dost və strateji tərəfdaş ölkələr kimi bir-biri ilə daha sıx əlaqədədirlər.

Siyasi əlaqələrə gəldikdə, təkcə bizim təmaslarımızı qeyd etmək kifayətdir, eyni zamanda nazirlər səviyyəsində çoxsaylı görüşlər keçirilib. Mənim səfərim, əlbəttə, bir az gecikib, amma buna səbəb COVID-dir. Mən COVID-dən dərhal sonra bir neçə ölkəyə, o cümlədən Bolqarıstana səfərlər etmişəm. Əminəm ki, strateji tərəfdaşlar kimi biz bu gün müzakirə edilən əsas məsələ olan enerji təhlükəsizliyi sahəsində əlavə addımlar atacağıq. Artıq bu sahədə də tərəfdaşlıq gerçəkləşib, Azərbaycan qazı indi Bolqarıstandadır. Bu gün Prezidentlə söhbət zamanı biz Bolqarıstana ixrac ediləcək Azərbaycan qazının həcminin artırılmasını da müzakirə etdik və müvafiq göstərişlər verilmişdir. Enerji təhlükəsizliyi məsələləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir, ancaq indiki şəraitdə bu əhəmiyyət daha da artmışdır. Biz bunu yaxşı dərk edirik. Ona görə əlimizdən gələni edirik ki, qaz hasilatını artıraq və tərəfdaşlarımızı təbii qazla təmin edək. Azərbaycan uzun illərdir etibarlı tərəfdaş kimi xam neftini dünya və Avropa bazarlarına ixrac edir. İndi təbii qazı ixrac edən Azərbaycan bu sahədə də etibarlı tərəfdaş kimi özünü göstərəcəkdir.

Sabah keçiriləcək mərasim haqqında da bu gün fikir mübadiləsi aparıldı. Mən Prezident Radevi bu böyük tarixi nailiyyət münasibətilə təbrik etdim. Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi, doğrudan da, tarixi əhəmiyyətə malikdir. Əminəm ki, bu interkonnektor həm Azərbaycan qazının Avropaya daha geniş miqyasda nəql olunmasına imkan verəcək, eyni zamanda Avropa qitəsində enerji təhlükəsizliyinə də bunun çox böyük faydası olacaqdır.



Prezidentin qeyd etdiyi kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında bu yaxınlarda enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Bu memoranduma əsasən növbəti bir neçə ildə biz Avropaya qaz ixracatımızı ən azı 2 dəfə artıracağıq və buna imkan var. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Yeni və çoxşaxəli qaz nəqliyyat infrastrukturu bizə imkan verir ki, bir çox ölkələri təbii qazla təmin edək. Əlbəttə ki, bu sahədə əldə edilmiş uğurlar gələcək planlar üçün də gözəl zəmindir.

Eyni zamanda bu gün artıq Prezident də qeyd etdi, SOCAR-ın Bolqarıstanda ofisinin açılması məsələsi müzakirə olundu. Biz enerji sahəsində təkcə təbii qazın ixracı ilə işimizi bitmiş hesab etməməliyik. Biz enerji ilə bağlı olan digər məsələləri müzakirə etdik. Elektrik enerjisinin ixracı və bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq, xam neftin Bolqarıstan istiqamətinə nəqli, Bolqarıstanda enerji infrastrukturunun yenilənməsində SOCAR-ın mümkün iştirakı və digər məsələlər müzakirə olundu. Bir sözlə, SOCAR-ın Bolqarıstandakı ofisinin açılması vaxtı çatıb və əminəm ki, biz yaxın vaxtlarda bunu da edəcəyik.

Bütövlükdə isə digər məsələlərə gəldikdə, bu gün yeni geosiyasi vəziyyəti nəzərə alaraq nəqliyyat təhlükəsizliyi də, əlbəttə ki, önəmli məsələdir. Azərbaycan öz ərazisində çox müasir nəqliyyat infrastrukturu yaratmışdır, - dəmir yolları, avtomobil yolları, yeni Beynəlxalq Dəniz Ticarət Limanı, - bütün bu infrastruktur obyektləri bir məqsədi güdür ki, Azərbaycan üzərindən tranzit yüklərin həcmi artsın. Bu il bu yüklərin həcmi təqribən 50 faizə yaxın artmışdır. Gələcəkdə bu rəqəm daha da böyük olacaq. Ona görə Bolqarıstan və Azərbaycan nəqliyyatçıları indidən bir araya gələrək uzunmüddətli və genişmiqyaslı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparacaqlar.

Mən bu gün Bolqarıstanın bir neçə aparıcı şirkətinin rəhbərləri ilə görüşəcəyəm. Artıq görüşlər üçün mövzular da kifayət qədərdir. Əminəm ki, bu görüş bütövlükdə iqtisadiyyat və sərmayə sahələrində əməkdaşlığın dərinləşməsi üçün çox önəmli rol oynayacaq. Eyni zamanda mən Bolqarıstan şirkətlərini Azərbaycanda daha genişmiqyaslı işlərin görülməsinə dəvət edəcəyəm, o cümlədən işğaldan azad olunmuş ərazilərə. Hazırda orada böyük quruculuq-abadlıq işləri aparılır və biz dost ölkələrin şirkətlərini orada görmək istərdik.

Bir sözlə, bu gün aparılan müzakirələrin və hələ davam edəcək müzakirələrin, - biz Prezident Radevlə hələ axşam bərabər olacağıq, mənim Baş nazirlə görüşüm olacaq, sabah tədbirdə bərabər iştirak edəcəyik, - çox gözəl bir ab-havada keçən bu görüşlərin çox böyük əhəmiyyəti var və olacaq.

Qonaqpərvərliyə və göstərdiyiniz diqqətə görə bir daha Sizə minnətdaram. Sağ olun.

## Prezidentin şərəfinə nahar

Sentyabrın 30-da Sofiyada Bolqarıstan Respublikasının müvəqqəti Hökumətinin rəhbəri Qılıb Donevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın müvəqqəti Hökumətinin rəhbəri **Qılıb DONEV** dedi:

- Hörmətli cənab Prezident Əliyev.

Hörmətli cənab nazirlər, Azərbaycan nümayəndə heyətinin üzvləri.



Mən Sizi Bolqarıstan Respublikasında salamlamaqdan olduqca məmnunam. Bu səfər ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edir. Əminəm ki, səfəriniz nəinki bu il intensiv qaydada apardığımız siyasi dialoqa töhfə verəcək, o cümlədən həm enerji təhlükəsizliyi, həm qarşılıqlı maraq doğuran bütün digər sahələrdə ölkələrimiz arasında əməkdaşlığı daha da genişləndirəcək və inkişaf etdirəcək.



İnanıram ki, son illər ərzində iki ölkə arasında yüksək və ali səviyyələrdə aparılan fəal strateji dialoq dostluq və qarşılıqlı hörmət əsasında inkişaf yolu ilə davam edəcək və hazırkı mürəkkəb geosiyasi hadisələr baxımından daha da əhəmiyyətlidir.

Hesab edirəm ki, səfəriniz coğrafi mövqeyimizdən daha yaxşı bəhrələnməyə və nəinki xalqlarımız, eləcə də bütün Avropa üçün daha böyük sabitliyə, proqnozlaşdırmaya və əminliyə töhfə verəcək. Əlbəttə ki, şəxsən mənim və bütün bolqarların dərin hörmət bəslədiyi Heydər Əliyev Fondunu qeyd etməliyəm. Bu fondun Bolqarıstanın qədim paytaxtı Veliko Tırnovo şəhərindəki "Trapezitsa" tarixi kompleksinin bərpasına və inkişafına verdiyi töhfəsi mədəniyyət sahəsində yaxşı əməkdaşlıq və əlaqələrin nümunəsidir.

Bir daha xoş gəlmisiniz və Sizə uğurlu səfər arzu edirəm.

* * *

Prezident **İlham ƏLİYEV** dedi:

- Cənab Baş nazir, təşəkkür edirəm. Sizi görməyimə çox şadam. İkitərəfli münasibətlərimizə aid mühüm məsələləri müzakirə etmək fürsətinə görə çox məmnunam. Əminəm ki, bu səfər ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcək və Bolqarıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq yeni dinamika qazanacaq.

Uzun illər ərzində, əslində, artıq yeddi ildir ki, bir-birimizi strateji tərəfdaş hesab edirik və sözün əsl mənasında, biz həmin sıx əməkdaşlığın nəticələrini görürük. Ticarət dövriyyəsi sahəsində yaxşı nəticələri müşahidə edirik. Baxmayaraq tam göstəricilər hələ ki, qane etmir, lakin bu il ticarət dövriyyəmiz iki dəfədən çox artıb.

Bu gün ərzində mən potensial əməkdaşlığımıza dair daha praktiki əsasların müəyyən edilməsi üçün Bolqarıstanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşəcəyəm. Hazırda enerji təhlükəsizliyinin qlobal gündəlikdə birinci yer tutduğunu nəzərə alsaq, əlbəttə ki, Bolqarıstan ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq bizim diqqət mərkəzimizdədir.

Bu yaxınlarda biz bu əməkdaşlığa başlamışıq və Azərbaycan Bolqarıstan üçün qaz təchizatçısına çevrilib. Biz qaz təchizatının həcmini hətta elan edilmiş həcmdən də çox artırmağı planlaşdırırıq.

Birgə işimizi uğurla planlaşdıra biləcəyimiz digər vacib sahə marşrutların müəyyən edilməsidir. Hesab edirəm ki, mövcud layihələr və hazırkı birləşdirici xətlərin uzadılması ölkələrimizin ərazisi ilə artırılmış tranzit üçün yeni yaxşı imkanlar açacaq.

Cənab Baş nazir, Heydər Əliyev Fondunun Bolqarıstanda fəaliyyətini qeyd etdiyinizə görə təşəkkür edirəm. Veliko Tırnovoda tarixi bərpa prosesinə dəstək vermək bizim üçün böyük şərəf oldu. Bu layihə əməkdaşlığımızın səmimiliyini, xalqlarımız arasında çox yaxın əlaqələri bir daha göstərir.

Səfərim yenicə başlayıb, hazırda davam edir və sabah da davam edəcək. Lakin artıq söyləyə bilərəm ki, nəticələr məni qane edir.

Sizə və Bolqarıstan xalqına ən xoş arzularımı çatdırıram.

## Biznes nümayəndələri ilə görüş





Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin aparıcı biznes dairələrinin nümayəndələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Bolqarıstana rəsmi səfərim zamanı bu ölkədəki biznes icması ilə tanış olmaq fürsəti əldə etdiyimə görə şadam. Bu görüşə gəldiyinizə görə sizə təşəkkür edirəm. Əvvəlcə demək istəyirəm ki, bu gün Prezident və Baş nazirlə apardığım müzakirələrdən çox razıyam. Biz ortaq maraq doğuran bir çox sahələr üzrə danışıqlar aparmışıq. Biz qarşılıqlı əməkdaşlığı genişləndirməyin yollarını müzakirə etmişik. Biz enerji və nəqliyyat sahələri də daxil olmaqla, iqtisadi əlaqələr, ticari əməkdaşlıq sahələrinə toxunduq. Bu sahələr bizim qarşılıqlı əlaqələrimiz, həmçinin regional inkişaf üçün çox mühümdür. Təbii ki, biz sizi maraqlandıran məsələləri müzakirə edəcəyik. Çünki sizin bu görüşdə iştirakınız ondan xəbər verir ki, ölkəmizi yaxşı tanıyırsınız, inkişafımızı və apardığımız islahatları yaxşı bilirsiniz. Ümid edirəm ki, bu görüşdən sonra siz bizim şirkətlərlə, ölkəmizlə istər investor kimi, istərsə də müqavilələr vasitəsilə çalışmağa daha həvəsli olacaqsınız. Bolqarıstan ilə Azərbaycan arasında dostluq münasibətlərini nəzərə alaraq inanıram ki, bizim biznes cəmiyyətlərimiz üçün qarşılıqlı layihələrdə iştirak etməyin əsl zamanıdır.

Bu görüşdə iştirakınız üçün bir daha minnətdaram.

* * *

Sonra çıxış edən Bolqarıstanın aparıcı biznes dairələrinin nümayəndələri tərəfindən Azərbaycan Prezidentinə avtomobil, qida, enerji, peyk, pilotsuz uçuş aparatları, kommunikasiya, rəqəmsal inkişaf, İKT, tibb, kimya sənayesi ilə bağlı olan layihələr barədə təqdimatlar edildi. Bəzi şirkətlərin nümayəndələri artıq Azərbaycan şirkətləri ilə əməkdaşlıq etdiklərini bildirdilər. Həmçinin Ələt Azad İqtisadi Zonasında və digər sənaye zonalarında Azərbaycan şirkətləri ilə birgə fəaliyyət göstərməkdə maraqlı olduqlarını qeyd etdilər.

Görüşdə bolqarıstanlı iş adamlarına Azərbaycandakı investisiya imkanları və biznes mühiti barədə də ətraflı məlumat verildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

# Azərbaycanla Bolqarıstan dost və strateji tərəfdaş ölkələr kimi bir-biri ilə sıx əlaqədədirlər

## Rəsmi şam yeməyi



Sentyabrın 30-da Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi şam yeməyi verilib.

## Hava limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Bolqarıstan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

## Şuşa şəhəri ilə Veliko Tırnovo şəhəri arasında qardaşlaşma haqqında Anlaşma Memorandumu imzalanıb

Sentyabrın 30-da paytaxt Sofiyada Azərbaycanın Şuşa şəhəri ilə Bolqarıstanın Veliko Tırnovo şəhəri arasında qardaşlaşma haqqında Anlaşma Memorandumu imzalanıb.



AZƏRTAC xəbər verir ki, memorandumu Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Veliko Tırnovo şəhərinin meri Daniel Panov imzalayıblar.

Qeyd edək ki, Heydər Əliyev Fondu Bolqarıstanın mədəni-mənəvi paytaxtı olan Veliko Tırnovo şəhərində yerləşən "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına mühüm töhfə verib. Heydər Əliyev Fondu tarixi abidənin 158 metr uzunluğunda qərb divarının konservasiyasını və bərpasını, 880 metr uzunluğunda turizm xiyabanının salınmasını, Mədəni İrs Mərkəzinin yaradılmasını, bu ərazidə yerləşən Orta əsrlərə aid üç kilsənin təmirini və konservasiyasını həyata keçirib. 2016-cı il sentyabrın 22-də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun açılış mərasimində iştirak ediblər.

Həmin gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomları təqdim olunub. Heydər Əliyev Fondunun prezidentinə Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı adı şəhərin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə verilib.

## Memorandum Şuşa və Veliko Tırnovo şəhərlərinin əlaqələrini daha da möhkəmləndirəcək

*"Azərbaycanın Şuşa şəhəri ilə Bolqarıstanın Veliko Tırnovo şəhəri arasında qardaşlaşma haqqında Anlaşma Memorandumu hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edən, həm mədəni, həm də tarixi baxımdan iki şəhərin - Şuşanın və Veliko Tırnovo şəhərlərinin qardaşlaşmasını özündə ehtiva edir. Ənənəvi olaraq bu cür qardaşlaşma sazişlərində mədəni, elmi, eyni zamanda digər sahələrdə əməkdaşlığın, qarşılıqlı layihələrin dəstəklənməsi nəzərdə tutulur. Bilirsiniz ki, Şuşa və Veliko Tırnovo şəhərləri vaxtilə tarixi və siyasi mərkəz rolunu oynayıb. Şuşa şəhəri işğaldan azad olunduqdan sonra artıq bir neçə türkdilli dövlətlərin şəhərləri ilə qardaşlaşma memorandumu imzalanıb. Lakin Veliko Tırnovo Avropa İttifaqı şəhərləri arasında birincidir. Düşünürəm ki, bu da çox əhəmiyyətli bir məqamdır".*



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qardaşlaşma haqqında Anlaşma Memorandumunun imzalanma mərasimindən sonra jurnalistlərə açıqlamasında deyib.

Memorandumun imzalanmasının çox böyük rəmzi məna daşıdığını vurğulayan A.Kərimov bildirib: "İnanıram ki, bu memorandumun imzalanması ilə hər iki şəhərin əlaqələri daha da möhkəmlənəcək. Eyni zamanda bu memorandum xalqlarımız arasında münasibətlərin inkişafına öz töhfəsini verəcək. Şuşa şəhəri indi bərpa və quruculuq mərhələsindədir. İstərdik ki, Şuşa şəhəri beynəlxalq təcrübəyə əsaslanaraq tarixi abidələrin bərpası, mədəni irsin qorunması sahəsində tərəfdaşlarla, ilk növbədə qardaşlaşmış şəhərlərlə əlaqələrini daha da sıx inkişaf etdirsin".

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Məmmədov Elçin Məmmədbağır oğlu -
Azərbaycan Respublikası baş prokurorunun birinci müavini
Camalov Elmar Heybət oğlu -
Azərbaycan Respublikası baş prokurorunun müavini
Məmmədov Heydər Vidadi oğlu -
Azərbaycan Respublikası baş prokurorunun müavini
Rəcəbov Nazim Hafis oğlu -
Azərbaycan Respublikası baş prokurorunun müavini -
Azərbaycan Respublikasının Baş prokuroru yanında
Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi.

2. Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Əvəzov Nemət Yusif oğlu -
Azərbaycan Respublikası Baş Prokurorluğunun
İstintaq İdarəsinin rəisi
Əlixanov Erkin Hüseynağa oğlu -
Azərbaycan Respublikası Baş Prokurorluğunun
Beynəlxalq Hüquqi Əməkdaşlıq İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2022-ci il*

## Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı

Azərbaycanın əzəli tarixi torpaqlarını qəsb etməyi şovinist milli ideologiyasının əsas hədəflərindən birinə çevirmiş erməni faşizminin ağır məğlubiyyəti ilə nəticələnən Vətən müharibəsinin başlanmasının iki ili tamam olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasını təmin etmiş, son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoymuş, tarixi düşmənə qarşı çoxəsrlik mübarizədə məğlubiyyət sindromunu aradan qaldırmışdır. Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğaldan azad edilməsi Azərbaycanın müstəqillik tarixində yeni dövr açmışdır.

Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamənin, bir sıra digər nüfuzlu beynəlxalq təşkilatların aktlarının icrasını öz gücü ilə təmin etmişdir. Vətən müharibəsi nəticəsində yaranan yeni reallıq Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanatda təsbit olunmuşdur.

Ermənistan üçün faktiki kapitulyasiya aktı olan bu beynəlxalq sənədlə tərəflər üzərilərinə müəyyən öhdəliklər götürmüşlər. Müharibədən sonrakı dövrdə bu öhdəliklərin bir qismi yerinə yetirilsə də, erməni silahlı qüvvələrinin Qarabağdan tamamilə çıxarılması, bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilməsi və yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı öhdəliklər Ermənistanın təqsiri ucbatından indiyədək yerinə yetirilməmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi postmünaqişə dövrünün reallıqlarını, bölgədə uzunmüddətli və dayanıqlı sülh və sabitlik yaradılması zərurətini nəzərə alaraq, Ermənistan Respublikası ilə münasibətlərin normallaşması və sülh sazişinin hazırlanması üçün 5 təməl prinsip təklif etmişdir. Ermənistan tərəfi bu prinsipləri sözdə qəbul etsə də, aparılan danışıqlarda əldə edilən razılaşmaları pozmaq üçün müxtəlif əməllərə əl atmışdır.

Bu il sentyabr ayının 13-də Ermənistan silahlı qüvvələri dövlət sərhədinin delimitasiya və demarkasiya olunmamasından istifadə edərək Azərbaycanın Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy və Zəngilan rayonları istiqamətində genişmiqyaslı silahlı təxribat törətmişlər. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində bu təxribatın qarşısı qətiyyətlə alınmış, Ermənistan silahlı qüvvələrinə növbəti ağır zərbə endirilmişdir. Aydın məsələdir ki, Ermənistanın revanşizm niyyətindən irəli gələn bu hərəkəti iki dövlət arasında sivil münasibətlər qurulması üçün göstərilən səyləri pozmağa, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinə maneçilik törətməyə yönəlmişdir.

Ermənistanın törətdiyi təxribat barəsində bəzi yüksəksəviyyəli xarici dövlət rəsmilərinin obyektivlikdən uzaq, qərəzli, hətta təhrikedici fikirlər səsləndirməsi təəssüf doğurur. Belə açıqlamaların erməni təbliğatının təsiri altında və ya siyasi dividendlər əldə etmək niyyəti ilə verildiyinə şübhə yoxdur.

Bu gün Azərbaycanın 30 illik işğal dövründə vandalcasına viran qoyulmuş torpaqlarında yaşayış məntəqələrinin bərpası layihələri həyata keçirilir, infrastruktur obyektləri qurulur, hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa olunur, elektrik, su xətləri çəkilir. Məcburi köçkünlərin mümkün qədər tez müddətdə doğma yurdlarına qayıtması üçün şərait yaradılır. Artıq onların bir hissəsinin yurd həsrətinə son qoyulmuşdur.

Təəssüf ki, Ermənistan tərəfinin işğal dövründə və müharibədən sonra Azərbaycan ərazilərində basdırdığı yüz minlərcə tank və piyada əleyhinə minalar bərpa və quruculuq işlərinin sürətlə aparılmasına imkan vermir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 200 nəfərdən çox mülki şəxs və hərbçi minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Lakin heç kəsin şübhəsi olmasın ki, törədilən bütün maneələrə baxmayaraq, Azərbaycan xalqı ərazi bütövlüyünün keşiyində ayıqsayıq dayanmışdır, şəhidlərinin həyatı bahasına işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına, yerlə bir edilmiş şəhər və kəndlərin tam bərpasına nail olacaq, Qarabağı və Şərqi Zəngəzuru çiçəklənən diyarlara çevirəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi ümid etdiyini bildirir ki, Ermənistan Respublikası öz məsuliyyətini dərk edərək XXI əsrə yaraşmayan davranış və hərəkətlərdən əl çəkəcək, Azərbaycanla sivil dövlətlərarası münasibətlər qurulması, bölgə xalqlarının əmin-amanlığa qovuşdurulması üçün yaranmış tarixi imkanı bir daha nəzərdən keçirəcəkdir. Azərbaycan Respublikası Cənubi Qafqazın münaqişə və müharibələrdən azad olan, bütün xalqların nümayəndələrinin qarşılıqlı iş birliyi şəraitində dinamik inkişaf edən bir məkana çevrilməsi üçün özündən asılı olan bütün tədbirləri görməyə hazırdır.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 30 sentyabr tarixli iclasında qəbul edilmişdir.)*

## Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası işinə başladı





**Sentyabrın 30-da Milli Məclisin payız sessiyasında ilk plenar iclası keçirilib. Milli Məclisin Sədri payız sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Spiker deputatlara payız sessiyasının başlanması münasibəti ilə təbriklərini çatdırıb və səmərəli fəaliyyət arzulayıb.**

Sahibə Qafarova diqqətə çatdırıb ki, sentyabr 13-də Ermənistan silahlı qüvvələri dövlət sərhədinin Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlar törədiblər. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində bu təxribatların qarşısı qətiyyətlə alınıb, Ermənistan silahlı qüvvələri canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qoyulub, onların həmin bölgədəki əsas hərbi infrastrukturu darmadağın edilib.

Bu da xüsusi qeyd edilməlidir ki, baş vermiş təxribatlara və çoxsaylı itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Aydındır ki, Ermənistanın bu cür təxribatlarda əsas məqsədi sülh prosesini pozmaq, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinə mane olmaqdır.

Sahibə Qafarova bildirib ki, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə qarşı yönələn silahlı hücumun dəf edilməsi zamanı, təəssüf ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında da itkilər olub.

Düşmənin son təxribatlarının qarşısının alınması zamanı, eləcə də Birinci və İkinci Qarabağ müharibələrində, digər döyüş əməliyyatlarında Vətən və xalq yolunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Milli Məclisin Sədri şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə möhkəm cansağlığı, yaralı hərbçilərimizə isə şəfa diləyib.

Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Sərəncam imzalayıb. Qeyd olunub ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövrü onun yorulmaz fəaliyyəti ilə bilavasitə bağlıdır. Məhz Ümummilli Liderimizin sayəsində xalqımız əvvəlcə dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, sonra isə bu təməl üzərində qurulan müstəqil dövlətini qoruyub saxlaya və davamlı inkişaf yoluna çıxara bilmişdir. Ulu Öndərin başladığı möhtəşəm işlər bu gün onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən dəyişən dövrün tələblərinə uyğun şəkildə yaradıcı surətdə davam etdirilir. Heydər Əliyevin vəsiyyətini yerinə yetirməklə Qarabağın 30 illik işğaldan azad edilməsi də bu dahi şəxsiyyətin xatirəsinə ən böyük ehtiramın təcəssümüdür.

Sahibə Qafarova vurğulayıb ki, 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi Ulu Öndərin misilsiz xidmətlərinə verilən yüksək dəyərin bariz ifadəsi kimi qiymətləndirilməlidir.

Gündəlikdəki məsələlərin müzakirəsinə başlamazdan əvvəl spiker diqqətə çatdırıb ki, iki il bundan əvvəl, 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri qəhrəmanlıq tariximizə yeni şanlı səhifələr yazdılar. Döyüş meydanlarında şəhidlərin və qazilərin canı və qanı bahasına əldə edilən hərbi qələbə xalqımızın bu günü və gələcəyi ilə bağlı olan taleyüklü məsələnin həllini təmin etdi.

Həm tarixi, həm də hüquqi baxımdan Azərbaycana məxsus olan torpaqların 30 illik işğalına son qoyuldu, dünya nizamına və beynəlxalq qaydaya meydan oxuyan, regional təhlükəsizlik arxitekturası üçün daimi təhdid törədən erməni faşizminə sarsıdıcı zərbə endirildi.

Böyük Zəfərin Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı ilə siyasi-diplomatik müstəvidə də təsbit edilməsi Cənubi Qafqazda geosiyasi vəziyyəti həmişəlik dəyişdirdi. Azərbaycan dövlətinin ərazi bütövlüyü təmin edildikdən sonra bölgədə sivil dövlətlərarası münasibətlər qurulması üçün real imkanlar yarandı. Artıq münaqişə tarixdə qalıb və Qafqazın bu bölgəsində müharibədən deyil, sülhdən danışmaq zamanıdır. Postmünaqişə dövrünün tələblərini düzgün qiymətləndirən Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması üçün 5 prinsip təklif edib. Təəssüf ki, Ermənistan tərəfinin havadarlarına güvənərək sərgilədiyi məntiqsiz davranış və hərəkətlər onun Vətən müharibəsində aldığı dərsdən lazımi nəticələr çıxarmadığını, bölgədə sülh prosesinə hazır olmadığını, hələ də qisasçılıq niyyəti ilə yaşadığını göstərir. Lakin hamı bilməlidir ki, pozuculuq fəaliyyəti, vaxtı uzatmaq taktikası Ermənistanın özü üçün ağır nəticələr törədəcəkdir.

Milli Məclisin Sədri çıxışının sonunda Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini xatırladıb. O bildirib ki, dövlət başçısı sentyabrın 21-də Laçın şəhərində Azərbaycan bayrağını ucaldarkən demişdir: "Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz...

Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik.

Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik".

Sonra deputat Soltan Məmmədov Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatını səsləndirib. *(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Bəyanat səsə qoyularaq qəbul edilib.

İclasda ilk olaraq Milli Məclisin 2022-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin növbəti məsələsi - "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununu (ikinci səsvermə) təqdim edib. Bildirilib ki, təklif edilən dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır və "Media haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədardır. Dəyişikliyə əsasən, "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 4.1.5-ci və 80.0.2.5-ci maddələrində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz olunur.

Qanun layihəsi ikinci səsvermədə qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi barədə məlumat verib. Bildirilib ki, adıçəkilən konvensiya 1965-ci il noyabrın 15-də Haaqa şəhərində imzalanıb. Bu konvensiya xaricdə təqdim ediləcək məhkəmə və qeyri-məhkəmə sənədlərinin ünvanlanan şəxsin nəzərinə vaxtında çatdırılmasını təmin etmək üçün müvafiq vasitələrin yaradılmasını, bu məqsəd üçün prosedurun sadələşdirilməsi və sürətləndirilməsi vasitəsilə qarşılıqlı məhkəmə yardımının təşkilinin təkmilləşdirilməsini nəzərdə tutur.

Azərbaycan konvensiyaya müvafiq bəyanatla qoşulur. Bəyanatda konvensiyanın müddəalarının münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistanla Azərbaycan arasında münasibətlər normallaşana qədər Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəyi qeyd olunur.

Komitə sədri Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə dair məlumatı diqqətə çatdırıb. Bildirilib ki, konvensiya uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası üzrə dövlətlər arasında əməkdaşlığın təkmilləşdirməsini nəzərdə tutur. Konvensiyanın Azərbaycan Respublikasının müvafiq bəyanatları və qeyd-şərtləri ilə təsdiq edilməsi nəzərdə tutulur. Bəyanatda konvensiyanın müddəalarının münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistanla Azərbaycan arasında münasibətlər normallaşana qədər Azərbaycan tərəfindən Ermənistana münasibətdə tətbiq edilməyəcəyi qeyd olunur.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda daha sonra "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında" sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" sazişin təsdiq edilməsi barədə və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihələri təsdiq edilib.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun məlumatından sonra "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra iclasda birinci oxunuşda təqdim olunan qanun layihələrinə baxılıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Qanunun 6-cı maddəsinə təklif edilən dəyişikliyə əsasən, şəhidlərə və şəhid ailələrinə xərclənən vəsaitin mənbələrinin dairəsi konkretləşdirilərək artırılıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, qanunun 7.2-ci maddəsinə təklif olunan əlavəyə görə, Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi Milli Koordinator yanında ictimai əsaslarla fəaliyyət göstərən İşçi Qrup vasitəsilə həyata keçirilir. İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədlə bağlı öz fikirlərini açıqlayıb və rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) də müzakirə olunub. Bildirilib ki, layihə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" 9 iyul 2021-ci il tarixli qanunun icrası ilə əlaqədar hazırlanıb və həmin qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edir. Sənədə əsasən müvafiq dəyişikliklər İnzibati Xətalar Məcəlləsinin 279-cu maddəsinin yalnız dispozisiyasına təklif edilir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məsələ barədə rəhbərlik etdiyi komitədə müsbət rəy verildiyini bildirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən layihə cəzaçəkmə müəssisələrində, intizam xarakterli hərbi hissədə saxlanılan və ya müvəqqəti olaraq istintaq təcridxanalarına keçirilmiş məhkumlara videogörüşlər keçirmək hüququnun verilməsini, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə görüşlərə məhdudiyyət qoyulduğu hallarda məhkumun xahişi olduqda, qısamüddətli görüşlərin telefon danışıqları və ya videogörüşlərlə əvəz edilməsini nəzərdə tutur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Fasilədən sonra gündəlikdəki məsələlərin müzakirəsi davam edib.

Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd olunub ki, dəyişikliyə əsasən, qaçaqmalçılıq maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə əlli min manatdan yuxarı məbləğdə pul vəsaitlərinin köçürülməsi cinayət məsuliyyətinə cəlb edilməsini nəzərdə tutur.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd əlli min manatadək məbləğdə pul vəsaitlərinin Azərbaycandan xarici ölkələrə və ya xarici ölkələrdən Azərbaycana qanunsuz köçürülməsinin inzibati məsuliyyətə cəlb edilməsini nəzərdə tutur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda daha sonra "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Qeyd olunub ki, layihə siyahısı müvafiq orqan tərəfindən təsdiq olunmuş avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin müvafiq orqanın təsdiqedici sənədi əsasında dövlət ümumtəhsil müəssisələri tərəfindən idxalı 2023-cü ilin yanvar ayının 1-dən 2 il müddətinə gömrük rüsumundan azad edilməsini nəzərdə tutur. Dəyişiklik dövlət ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılmasının stimullaşdırılması məqsədi daşıyır.

Komitə sədri Bəxtiyar Əliyev və deputat Etibar Əliyev məsələ barədə fikirlərini açıqlayıblar, təklif olunan dəyişikliyi müsbət qiymətləndiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, Məcəllənin 144.2-1-ci maddəsində "məqsədilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq notariuslarla daşınmaz əmlakın dövlət reyestri arasında məlumat və sənəd mübadiləsi imkanı, o cümlədən notariusların daşınmaz əmlakın dövlət reyestrinə elektron qaydada birbaşa çıxışı təmin olunmalıdır" sözləri "bu Məcəllənin 148.3-cü maddəsinə uyğun olaraq təmin olunur" sözləri ilə əvəz edilir.

Həmçinin məcəllənin 144.3-cü maddəsi yeni redaksiyada təqdim olunur. Yeni redaksiyada qeyd olunur ki, daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin informasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.

Məcəlləyə təklif olunan əlavəyə əsasən, beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda notariat qaydasında təsdiq edilməlidir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar diqqətə çatdırılıb ki, qanuna daşınmaz əmlak üzərində hüquqların "bir pəncərə" prinsipi əsasında dövlət qeydiyyatı ilə bağlı yeni maddə əlavə olunur. Əlavəyə əsasən daşınmaz əmlaka sərəncam verilməsi barədə notariat qaydasında təsdiq edilmiş müqavilələr, habelə daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və təsdiq edilmiş digər sənədlər (o cümlədən müqavilə, ər-arvadın ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə, qanun və ya vəsiyyət üzrə vərəsəlik şəhadətnaməsi, bölgü planı, nisyə alqı-satqı müqaviləsi üzrə son ödəniş barədə bildiriş və s.) əsasında hüquqlarının "bir pəncərə" prinsipi əsasında dövlət qeydiyyatı aparılır.

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı diqqətə çatdırılıb ki, qanunun əmlakın özgəninkiləşdirilməsi və ipoteka qoyulması haqqında müqavilələrin təsdiq edilməsinə dair maddəsi yeni redaksiyada təklif olunur. Dəyişikliyə əsasən, dövlət qeydiyyatından keçməli olan əmlakın özgəninkiləşdirilməsi və ya ipoteka qoyulması haqqında müqavilələr özgəninkiləşdirilən və ya ipoteka qoyulan əmlaka mülkiyyət hüququnu təsdiq edən, avtonəqliyyat vasitələri üzrə, həmçinin onların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın verdiyi müayinədən keçməsi barədə sənədlər və ya sənədlər haqqında elektron informasiya sistemindən real vaxt rejimində əldə edilmiş məlumatlar əsasında təsdiq edilir.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri də təsdiq olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında təklif olunan qanun layihəsinin mahiyyəti işçilərin peşə hazırlığının səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin, habelə ixtisasının artırılmasının hüquqi tənzimlənməsini nəzərdə tutur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Komitə sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini də təqdim edib. Bildirilib ki, qanun layihəsi Azərbaycan Prezidentinin "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2022-ci il 8 fevral tarixli Sərəncamından irəli gələn məsələlərin həlli məqsədi ilə hazırlanıb. Qanunun 7 maddəsinə təklif olunan 42 dəyişiklik mahiyyət etibarı ilə pensiya artımlarının vahid indeksasiyası metodunun tətbiq edilməsini və müvafiq icra hakimiyyəti orqanı tərəfindən əmək pensiyaçılarına edilən maddi yardımın pensiyaya əlavə edilməsinin hüquqi bazasının yaradılmasını nəzərdə tutur.

Qeyd olunub ki, pensiyaların illik artımı sahəsində olan bəzi uyğunsuzluq və çatışmazlıqların aradan qaldırılması və pensiya artımlarının vahid indeksasiya mexanizminin tətbiqinə nail olmaq üçün "Əmək pensiyaları haqqında" qanunun 1-ci, 6-cı, 20-ci, 26-cı, 29-cu, 45-ci maddələrinə müvafiq dəyişiklik edilməsi təklif olunur. Layihədə təklif edilən vahid indeksasiya metoduna keçidlə bağlı dəyişikliklər bütün növ əmək pensiyalarının məbləğinin hər il vahid qaydada indeksləşdirilərək artırılacağını, qulluq stajına görə əlavə almaq hüququ olan şəxslərin pensiyasının hər il indeksasiya edilərək daha çox artmasını, pensiyaların indeksləşdirilərək artırılmasının tamamilə elektronlaşdırılmasını, pensiyaçılar və onların xidmət keçdiyi qurumların hər hansı məlumat təqdim etmək öhdəliyinin aradan qalxacağını nəzərdə tutub.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, layihədə təklif edilən dəyişiklik ölkədə aparılan sosial islahatların davamı olaraq, pensiya təminatı sistemində sosial sığorta prinsipinin daha da möhkəmləndirilməsi, dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə hazırlanıb. Nəzərdə tutulan dəyişiklik əməkhaqlarının artırılması sahəsində islahatların daha çevik həyata keçirilməsinə, pensiya artımlarında vahid indeksasiya metodunun tətbiqinə və nəticədə əmək haqqındakı artımlardan asılı olmayaraq, hər il pensiyaların artımına səbəb olacaq.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Bildirilib ki, Əmək Məcəlləsinin 211, 240, 241 və 243-cü maddələrinə təklif olunan dəyişikliklər qadınların işləməsini qadağan edən peşə və vəzifələrin sayını azaldır və məhdudiyyətlərin bütün qadın işçilərə deyil, yalnız hamilə və bir yaşınadək uşağı olan qadınlara şamil edilməsinə hüquqi əsaslar yaradır. Bununla da qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılarıq 204 müəyyən ediləcək, eyni zamanda qadağan edilən bu peşə (vəzifə) və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq ediləcək.

Qanun layihəsi ilə bağlı Hicran Hüseynova rəhbərlik etdiyi Ailə, qadın və uşaq məsələləri komitəsinin müsbət rəyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi olan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri Musa Quliyev məlumat verərək bildirib ki, sənəddə qanunun 39-cu maddəsinə dəyişiklik təklif olunub. Bildirilib ki, layihədə artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin əmək pensiyaçısından tutulması halları məhdudlaşdırılır. Belə ki, mövcud qaydaya əsasən, artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin əmək pensiyaçısından tutulması nəzərdə tutulurdusa, təklif olunan dəyişikliyə əsasən, artıq ödənişin tutulması diferensial şəkildə müəyyən ediləcəkdir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasın sonunda Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, deputatlar Elşən Musayev və Hikmət Məmmədov cari məsələlər və gündəmin aktual mövzuları ilə bağlı fikirlərini bölüşüblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Heydər Əliyev ili 2023



## Xalqımız Heydər Əliyevi hər zaman minnətdarlıqla anacaq

Lider faktoru tarix boyu dövlətlərin və xalqların taleyində mühüm siyasi amil kimi özünü göstərib. Siyasi və iqtisadi idarəetməsindən, coğrafi yerləşməsindən, cəmiyyətinin milli və mənəvi baxışlarından asılı olmayaraq hər bir ölkənin inkişafında, formalaşmasında, onun tarixinin yaranmasında qətiyyətli siyasi liderlərin böyük rolu olub. Tarix həm də sübut edir ki, belə dahi liderlər öz dövlətinin əsaslarının, onun milli ideyalarının yaradıcısına çevrilir, xalqını həmin ideyaların, dövlətçilik dəyərlərinin ətrafında qətiyyətlə birləşdirə, səfərbər edə bilirlər.

Bu baxımdan xalqımızın Ulu Öndəri Heydər Əliyevin siyasi fəaliyyəti, istər sovet, istərsə də müstəqillik illərində Azərbaycanın inkişafı və yüksəlişi naminə gördüyü işlər tarixdə liderlərin roluna dair ən mükəmməl nümunədir. Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olan unudulmaz tarixdir. Elə buna görə də vətənini, dövlətini sevən, dövlətçilik ideallarına bağlı olan hər bir azərbaycanlı qəlbində Heydər Əliyevə əzəmətli abidə ucaltmışdır.

Heydər Əliyev hələ sovetlər birliyində respublikamızın iqtisadi inkişafı, cəmiyyətimizdə milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının itməməsi üçün əlindən gələni edib, müstəqil dövlətçilik ideyalarının reallaşması naminə milli və iqtisadi zəmin formalaşdırıb.

Müasir Azərbaycan dövlətini yaratmaq missiyası da xilaskar kimi Ulu Öndər Heydər Əliyevə nəsib oldu. 1993-cü ildə ölkəmizin çətin bir vaxtında heç kimin öhdəsindən gələ bilməyəcəyi məsuliyyəti üzərinə götürməklə Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. Onun hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Ulu Öndər müasir Azərbaycanın qurucusu, memarı kimi tanındı, milyonların ehtiramını qazandı.

Aradan illər ötdükcə, Azərbaycan daha da inkişaf etdikcə Heydər Əliyevin dahiliyini daha dərindən dərk edirik. Həmçinin iki il əvvəl 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər həm də Heydər Əliyev siyasətinin təcəssümü, Heydər Əliyev yolunun davam etdirilməsinin məntiqi nəticəsi idi. Dövlət və xalq olaraq qazandığımız bütün nailiyyətlər təsdiq edir ki, möhtərəm Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi Heydər Əliyev yolunun, Ulu Öndərin müəyyən etdiyi siyasi kursun alternativi yoxdur.

Xalqımız Heydər Əliyevə tarix boyu minnətdar olacaq, hər zaman onu dərin ehtiramla yad edəcək. Heydər Əliyevlə bağlı olan tarixlərdə, eləcə də hər il may ayının 10-da ölkəmizin hər yerində müxtəlif tədbirlər keçirilməsi Ulu Öndərə olan ümumxalq məhəbbətinin göstəricisidir. 2023-cü ildə Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Ulu Öndərin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi cəmiyyətdə böyük razılıq və minnətdarlıqla qarşılandı.

2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar olaraq geniş tədbirlər planı hazırlanacaq, Heydər Əliyevin 100 illik yubileyi Azərbaycanda və eləcə də onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd ediləcək. Əlbəttə, Ulu Öndərin qurucusu olduğu Yeni Azərbaycan Partiyası da öz tədbirləri ilə "Heydər Əliyev ili"nə layiqli töhfələr verəcək.

Prezident İlham Əliyevin respublikamızda 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə bağlı sərəncamında qeyd olunduğu kimi, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Qürur hissi ilə qeyd etməliyik ki, cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində Heydər Əliyevin əmanəti olan Azərbaycan dövləti sürətlə yüksəlir, tarixinin ən qüdrətli dövrünü yaşayır, regionda və dünyada söz sahibi kimi mövqelərini möhkəmləndirir. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi bütün bunların təsdiqi kimi tariximizi şərəfləndirdi, Azərbaycanın öz milli maraqlarını qətiyyətlə təmin etdiyini göstərdi.

Bütövlükdə 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi respublikamızın həyatında böyük siyasi-ictimai hadisədir. Növbəti il bu istiqamətdə həyata keçiriləcək tədbirlər Ulu Öndərin dövlətçilik fəlsəfəsinin və azərbaycançılıq məfkurəsinin daha dərindən öyrənilməsində, təbliğ olunmasında, gələcək nəsillərə ötürülməsində, həm də inkişaf etdirilməsində yeni mərhələ olacaq.

*Cavid OSMANOV,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü*

## Ulu Öndərin yaratdığı BDÖZ...

### Bu zavod olmasaydı, indiki neft-qaz layihələri illərlə ləngiyər, xərclər artardı

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu ( BDÖZ) ... Ulu Öndərin Azərbaycan üçün gördüyü taleyüklü misilsiz işlərdən bəhs olunanda bu müəssisə də yada düşür. Ümummilli Liderin miqyasının sözlə ifadə edilməsi çətin olan böyük xidmətləri sırasında bəlkə də bir zavodun yaradılması çox kiçik görünə bilər. Lakin bu, sıradan bir müəssisə deyil. Prezident İlham Əliyevin təbirincə desək: "Bu zavod elə-belə zavod deyil, onun yaradılması da tarixi hadisədir".

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövrü respublikanın neft-qaz sahəsinin də yüksək inkişafı ilə səciyyələnir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində respublikaya neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox ağır yük qaldıran, boruçəkən, seysmik gəmilər, sərnişin gəmiləri gətirildi. "Azərbaycan" kran gəmisinin, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 metr dərinliyindəki sahələrdə işləməyə qadir olan "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması daha dərinliklərdə zəngin neft və qaz yataqlarının kəşfinə imkan yaratdı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yatağı kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1971-ci ildə Ulu Öndərin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatı təntənəli şəkildə qeyd edildi.

Bu dövrdə Azərbaycanın neft-qaz sənayesində baş verən ən mühüm hadisələrdən biri də məhz BDÖZ-ün tikilməsi idi. Həmin zavodun inşası keçmiş SSRİ-nin başqa bir şəhərində nəzərdə tutulmuşdu. O zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyevin uzaqgörənliyi, gərgin mübarizəsi, siyasi nüfuzu sayəsində belə nadir bir müəssisənin Bakıda tikilməsi mümkün oldu.

BDÖZ uzun illərdir ölkəmizin iqtisadi inkişafına böyük töhfələr verir. Prezident İlham Əliyevin 2004-cü il martın 10-da imzaladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı ilə BDÖZ-ə öz yaradıcısının - Ulu Öndərin adı verilib. Müəssisə bu adı şərəflə daşıyır.

Əvvəlcədən nəzərdə tutulduğu kimi, BDÖZ nəinki Xəzər dənizi regionunda, həmçinin keçmiş sovetlər birliyinin digər hövzələrinin şelflərində də özüllərin və platformaların tikintisini təmin etməli idi. Zavodun inşa edilməsinə 1978-ci ildə başlandı. Onun əsas texnoloji avadanlıq və yükqaldırma mexanizmləri ilə təchiz olunmasında ETPM fransız firması və "Demaq" Almaniya şirkəti iştirak etdilər.

BDÖZ tikildikcə ətrafında müvafiq infrastruktur yaradılırdı. Beləliklə, Sahil qəsəbəsində yaşayış evləri, uşaq bağçaları, məktəblər, texniki peşə məktəbləri və ticarət obyektləri inşa edildi. 1984-cü ilin aprel ayında zavod ildə 60 min ton metal konstruksiyaları istehsal etməklə layihə gücü ilə işləməyə başladı. 1985-ci ildə dərin özüllü platforma üçün birinci dayaq bloku BDÖZ-ün yanalma körpüsündən daşıma gəmisinə yüklənərək daimi nöqtəsinə göndərildi və orada quraşdırıldı. Ümumiyyətlə, o vaxt müəssisənin istehsal gücü çərçivəsində bir sıra məmulat növlərinin buraxılışı nəzərdə tutulmuşdu ki, bunlar 25 min tonluq dəniz stasionar platformalarının dayaq hissələri, 30 min tonluq payalar, 5 min tonluq göyərtələr idi.

1987-ci ildə BDÖZ-ün əsasında "Şelflayihətikinti" İstehsalat Birliyi təşkil olundu. İstehsalat birliyinin təyinatı Xəzər dənizinin şelf zonasında neft və qazın kəşfiyyatının başa çatdırılması və hasilatı üçün dərin dəniz platformalarının dayaq hissələrinin hazırlanması idi. Strukturun tərkibinə BDÖZ-dən başqa, bir neçə tikinti-quraşdırma, nəqliyyat, energetika idarəsi, təsərrüfat və ticarət müəssisələri daxil edildi.

2003-cü il yanvarın 24-də Ulu Öndər Heydər Əliyevin fərmanı ilə müəssisəyə keçmiş adının qaytarılması hamının ürəyincə oldu. Birliyin idarə və müəssisələri isə sex kimi BDÖZ-ün tərkibinə daxil edildi.

Qısaca ifadə etsək, bu zavod Azərbaycanın enerji sektorunun gələcəyinə qoyulmuş nəhəng bir sərmayə idi. Getdikcə müəssisə dənizin 200 metr dərinliyində yerləşən yataqlardan neft çıxarılması üçün zəruri olan konstruksiyaların istehsalı üzrə unikal imkanlara sahib oldu. Zavodun mövcudluğu "Əsrin müqaviləsi"nin bağlanması üçün təməl yaratdı və bu da Azərbaycanın iqtisadi inkişafını bir çox illər öncədən müəyyənləşdirdi. "Əsrin müqaviləsi" imzalanmazdan əvvəl burada artıq dənizin 100-163 metrədək dərinliyindən neft və qaz çıxarmaq üçün 11 stasionar platforma quraşdırılmışdı. 1995-ci ildən BDÖZ beynəlxalq enerji bazarının nəhənglərindən olan "British Petroleum" (bp), "Petrofac", "McDermott", "Caspian Shipyard Company" LTD, "Star Gulf FZCO" şirkətləri ilə əməkdaşlığa başlayaraq iş keyfiyyətini yeni səviyyəyə qaldırdı.

BDÖZ-ün güclü istehsalat qabiliyyəti "BOS Şelf" şirkətinin gələcək uğurlarının əsas amillərindən oldu. Zavodun infrastrukturundan istifadə etməklə "BOS Şelf" iri layihələrin həyata keçirilməsinə başladı. BDÖZ-ün operatoruna çevrildikdən sonra "BOS Şelf" zavodda yenidənqurma işlərinə start verdi. SOCAR-ın "BOS Şelf" şirkətinin idarəetməsi altında zavod tədricən təkcə Azərbaycanın deyil, həm də bütün Xəzər hövzəsi ölkələrinin ən iri tikinti-quraşdırma müəssisəsinə çevrilməkdədir. Burada Azərbaycan vətəndaşları ilə yanaşı çalışan xarici mütəxəssislərdən dəfələrlə eşitmişik ki, BDÖZ-ün möhtəşəmliyi onları heyrətə gətirir və belə müəssisələrə əvvəllər işlədikləri ölkələrdə tək-tək hallarda rast gəliblər.

Xatırladaq ki, hazırda "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında istismar olunan platformaların bir çox ən vacib hissələri bu müəssisədə tikilib. Zavod işlənməkdə olan digər yataqlarımız üçün də genişmiqyaslı tikinti-quraşdırma işləri həyata keçirib və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. Tikdiyi ən müasir platfomalarla bahəm BDÖZ özü də müasirləşir və təkmilləşir. Görülən işlərə müvafiq olaraq müəssisənin infrastrukturu genişləndirilir, modernləşdirilir.

2003-cü il noyabrın 24-də Prezident İlham Əliyev BDÖZ-ün 25 illik yubileyi münasibətilə düzənlənən tədbirin sonunda jurnalistlərin suallarını cavablandırarkən zavodun tarixini bir daha xatırladı, əhəmiyyətini vurğuladı: "Bu zavod elə-belə zavod deyil, onun yaradılması da tarixi hadisədir. Burada deyildi, əgər 25 il əvvəl bu zavod Azərbaycanda tikilməsəydi, bəlkə də bu layihələr belə uğurla həyata keçirilməzdi. İlk növbədə burada görülən işlərin sürəti azaldılacaqdı, yeddi il yubanma ola bilərdi. Ümumi xərclər 700 milyon dollar arta bilərdi. Əlbəttə, zavodun Azərbaycanda tikilməsi məhz o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində olubdur. O vaxt mərkəzi hökumət bu zavodu Həştərxan şəhərində tikmək qərarına gəlmişdi. Amma Heydər Əliyevin müdaxiləsindən sonra zavod Azərbaycanda tikildi. Bu gün burada 3500 azərbaycanlı işləyir, yüksək maaş alır... Neft sektoru uğurla inkişaf edir. Neft sektorunda əldə olunan nəticələr ancaq cənab Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əgər o, gərgin vaxtlarda təşəbbüs, qətiyyət göstərməsəydi, bu layihələr elə layihə olaraq qalacaqdı".

Azərbaycanın keçdiyi böyük inkişaf yolunda Heydər Əliyev adına BDÖZ ölkəmizlə qoşa addımlayır, böyük nailiyyətlərə imza atır. Zavodun fəaliyyəti daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət başçısı dəfələrlə müəssisədə olub, yeni layihələrə xeyir-dua verib, görülən işlərlə, burada çalışanların əməkhaqqı, dolanışığı ilə maraqlanıb.

Təkcə 2020-ci ildə Prezident İlham Əliyev yeni layihələrlə bağlı iki dəfə müəssisədə olub. Belə ki, 2020-ci il avqustun 10-da BDÖZ-də Prezidentin iştirakı ilə SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilmiş, "Qarabağ" yatağı üçün nəzərdə tutulmuş dayaq blokunun dənizə yola salınmasına start verildi. Həmin il sentyabrın 19-da dövlət başçısı zavodda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdi. Hazırda zavodda "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi layihəsinin 2050-ci ilədək uzadılması sazişi çərçivəsində tikilən "Azəri Mərkəzi Şərqi" (ACE) platforması ilə bağlı işlər də aparılır.

Ulu Öndərin əvəzsiz yadigarlarından biridir BDÖZ. Azərbaycanın həyatında və tarixində onun öz yeri var! Prezident İlham Əliyevin dediyi kimi: "Bu zavod hələ uzun-uzun illər işləyəcək, Azərbaycan üçün, bölgə üçün, region üçün çox mühüm işlər görəcəkdir!" Və bu işlər bəhrə verdikcə Ulu Öndər hər zaman, dönə-dönə xatırlanacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 1 Oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür

# Prokurorluq uğurlu inkişaf yolundadır

## Qüdrətli dövlət, davamlı sabitlik, yüksək rifah

Müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətçiliyimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu rasional siyasətin möhtərəm Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, tarixi zəfərimizin böyük memarı cənab İlham Əliyev tərəfindən milli maraqlara, dünyanın geosiyasi reallıqlarına adekvat olaraq inamla davam etdirilməsi üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasını təmin etmişdir.

Dövlət başçısının rəhbərliyi ilə sürətli və hərtərəfli yüksəliş dövrünə qədəm qoyan Azərbaycan dövləti və cəmiyyəti tarixinin ən qüdrətli çağlarını yaşayır. İctimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində əldə edilən böyük tərəqqi respublikamızın güclənməsinə, xalqımızın rifahının daha da yaxşılaşmasına zəmin yaratmışdır.

Sevindirici haldır ki, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli, ardıcıl və məqsədyönlü fəaliyyəti qarşıya qoyulan bir çox hədəflərə nail olunmasında, inkişafın əldə edilməsində mühüm faktorlardandır.

Xüsusi qeyd edilməlidir ki, mürəkkəb geosiyasi şəraitdə və kəsişən strateji maraqların fonunda tarixi ədaləti bərpa olunmaqla torpaqlarımızın əsarətdən xilas edilməsi Ulu Öndər tərəfindən müstəqillik illərində əsası qoyulmuş, cənab Prezident tərəfindən yeni müstəvidə uğurla davam etdirilən milli maraqlara və müasir qlobal çağırışlara müvafiq strateji kursun məntiqi nəticəsidir.

Dövlət başçısının rəhbərliyi ilə hücum diplomatiyasının uğurla həyata keçirilməsi, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi qərar və qətnamələrin qəbuluna nail olunması münaqişənin həlli istiqamətində ölkəmizin mövqeyinin möhkəmlənməsini şərtləndirmiş, mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələrində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi öz əksini tapmaqla zəruri və fundamental hüquqi baza formalaşdırılmışdır.

Əminliklə demək olar ki, milli maraqlara əsaslanan xarici siyasət kursunun, güclü iqtisadiyyat və ordu quruculuğunun həyata keçirilməsi, xalq-lider birliyinin, həmrəyliyin təmini, ölkəmizin imkanlarının milli hədəflər uğrunda məqsədyönlü şəkildə səfərbər olunması nəticəsində qazanılan böyük qələbə Heydər Əliyev siyasətinin və ideyalarının təntənəsidir.

Dövlətçilik salnaməmizə qızıl hərflərlə həkk olunmuş, tarixi ədaləti bərpa edən böyük zəfər regionda etibarlı təhlükəsizlik mühitinin, dayanıqlı sülhün və çoxşaxəli əməkdaşlığın təmin olunmasına zəmin yaratmaqla dövlət başçısının bilavasitə rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən dünyanı heyrətləndirən quruculuq və bərpa işləri əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın yüksək səviyyədə icrasına rəvac vermişdir.

Nəticə etibarilə, Azərbaycan xalqının xoşbəxt firavan gələcəyinə istiqamətlənmiş böyükmiqyaslı və uzaq məqsədli hədəflər uğurla gerçəkliyə çevrilmiş, ölkəmiz postpandemiya və postkonflikt dövründə inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur.

### Prokurorluq hüquqi dövlətin əsas sütunlarından biridir

Bu gün Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 104-cü ili tamam olur. Əminliklə deyə bilərik ki, Azərbaycan Prokurorluğunun qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə xidmət edən bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin *"Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"* sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, Ümummilli Liderin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə quruma ilk dəfə olaraq konstitusion status verilmişdir.

Məhz Ulu Öndərin tarixi həqiqəti əbədiləşdirərək prokurorluğa və prokurorluq işçilərinə xüsusi diqqət göstəricisi olan 17 iyul 1998-ci il tarixli sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün - oktyabr ayının 1-i Prokurorluq İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməklə qeyd olunmağa başlanmışdır.

Bu gün də prokurorluğun kollektivi Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi *"Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"* sözlərini dərin ehtiramla və böyük məsuliyyət hissi ilə dərk edərək üzərinə düşən vəzifələri layiqincə və şərəflə yerinə yetirmək üçün bütün qüvvələrini səfərbər edir.

Sevindirici haldır ki, Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına yüksək etimad göstərilməklə cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, qurumun fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması və əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılmışdır.

Prokurorluq orqanlarında beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanmaqla müasir məzmunlu islahatların əsasını qoymuş dövlət başçısı tərəfindən 2020-ci il mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən səsləndirilən *"Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq"* sözləri və həmin qəbul zamanı verilən tapşırıq və tövsiyələrin yerinə yetirilməsi istiqamətində qısa müddət ərzində zəruri tədbirlərin həyata keçirilməsi təmin edilmiş, islahatlar sistemli xarakter almışdır.

Qürurla qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" hərbi əməliyyatları zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər.

Bu gün işğaldan azad edilmiş ərazilərdə hüquq qaydasının möhkəmləndirilməsi, prokuror təsir tədbirlərindən istifadə etməklə aidiyyəti dövlət qurumları ilə birlikdə aparılan quruculuq işlərinə səlahiyyətləri daxilində dəstək göstərilməsi istiqamətində prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi məqsədilə yüksək şərait yaradılmış, növbətçilik əsasında fəaliyyət göstərilməsi üçün ayrılmış inzibati binalarda müasir maddi-texniki təchizat təmin edilmişdir.

### Prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülmüş işlər

*Cinayətkarlığa qarşı mübarizə.* Azərbaycan Prokurorluğu tərəfindən cinayətlərin müəyyən edilməklə qarşısının alınması, onu törədənlərə qarşı qanunla müəyyən edilmiş təsir tədbirlərinin tətbiq edilməsi üzrə effektiv fəaliyyətin təşkili qarşıda duran əsas vəzifələrdən biri hesab edilməklə, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlər görülmüşdür.

Xüsusi qeyd edilməlidir ki, ötən bir il ərzində həyata keçirilmiş səmərəli birgə tədbirlərin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində müsbət cəhətlər davam etmiş, ağır və xüsusilə ağır cinayətlərin böyük əksəriyyətinin açılması təmin edilməklə iqtisadi fəaliyyət sahəsində, ədalət mühakiməsi və idarəetmə qaydası əleyhinə olan, həmçinin qəsdən adam öldürməyə cəhd, qaçaqmalçılıq, vergidən yayınma cinayətləri azalmış, eləcə də ölkə ictimaiyyətini narahat edən intihar hallarının azalmasında da müsbət tendensiya müşahidə edilmişdir.

*Prosessual rəhbərlik.* Daxili işlər, dövlət təhlükəsizliyi, ədliyyə, gömrük, vergi, dövlət sərhəd və fövqəladə hallar orqanlarının fəaliyyətində məhkəməyədək aparılan təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətinə Konstitusiya ilə nəzərdə tutulmuş qaydada prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

1 oktyabr 2021-ci il tarixdən bugünədək prokurorluq orqanları tərəfindən daxili işlər orqanları üzrə 30732, vergi orqanları üzrə 1375, ədliyyə orqanları üzrə 988, sərhəd xidməti üzrə 321, gömrük orqanları üzrə 245, dövlət təhlükəsizliyi orqanları üzrə 82, fövqəladə hallar orqanları üzrə 47 cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilmişdir.

Həmin işlərdən daxili işlər orqanları üzrə 12279, ədliyyə orqanları üzrə 402, gömrük orqanları üzrə 93, vergi orqanları üzrə 74, sərhəd xidməti üzrə 69, dövlət təhlükəsizliyi orqanları üzrə 22, fövqəladə hallar orqanları üzrə 2 cinayət işi prokurorluq tərəfindən ittiham aktı təsdiq edilərək baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir.

Eyni zamanda ibtidai araşdırmaya prosessual rəhbərlik sahəsində ötən dövr ərzində daxili işlər orqanları üzrə 2054, vergi orqanları üzrə 33, gömrük orqanları üzrə 12, sərhəd xidməti üzrə 12, fövqəladə hallar orqanları üzrə 2, dövlət təhlükəsizliyi orqanları üzrə 1 prosessual qərar ləğv edilmiş, həmçinin daxili işlər orqanları üzrə 896, sərhəd xidməti üzrə 138, vergi orqanları üzrə 18, gömrük orqanları üzrə 5, fövqəladə hallar orqanları üzrə 4, dövlət təhlükəsizliyi orqanları üzrə 1 cinayət işi üzrə yazılı göstəriş verilmişdir.

*İstintaq fəaliyyəti.* Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisində əldə olunan misilsiz nailiyyətlərin qorunmaqla davamlı uğurların əldə edilməsi hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni neqativ tendensiyalarla, mütəşəkkil, transmilli cinayətkarlıqla səmərəli mübarizə aparılmasını şərtləndirmişdir.

Son bir il ərzində İstintaq idarəsi tərəfindən 12, Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən 2 və tabe rayon prokurorluqları tərəfindən 5 olmaqla, əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş, ümumilikdə, 19 qəsdən adam öldürmə cinayətinin daxili işlər və dövlət təhlükəsizliyi orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə, onlardan 11-i üzrə ibtidai istintaqın yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilməsi həyata keçirilmiş tədbirlərin bariz nümunəsidir.

Ümumilikdə, bu dövr ərzində ölkə üzrə cəmi 17205 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 1411-i prokurorluq orqanlarında istintaq edilmiş, tabe rayon prokurorluqları tərəfindən korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər üzrə 93 cinayət işinin istintaqı aparılmaqla qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Əlavə olaraq vurğulanmalıdır ki, Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən Vətən müharibəsi gedişində qanunsuz erməni birləşmələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətləri həyata keçirilməklə zəruri tədbirlər görülmüşdür.

Eyni zamanda erməni qəsbkarları tərəfindən dağıdılmış yaşayış məntəqələrinə, tarixi, dini-mədəni abidələrə və digər əmlaklara, həmçinin ekologiya və yerin təkinə dəymiş ziyanın, eləcə də işğal dövründə əldən çıxmış faydanın məbləğinin müəyyən edilməklə beynəlxalq məhkəmələrə müraciət olunması istiqamətində digər qurumlarla, o cümlədən Xarici İşlər Nazirliyi ilə əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.



*Korrupsiyaya qarşı mübarizə diqqət mərkəzindədir.* Qalibiyyət şərəfini daşıyan respublikamızın gələcək dövr üçün müəyyən edilən əsas strateji hədəflərinə çatmaqda korrupsiya hüquqpozmalarına qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli sərəncamı ilə yeni inkişaf mərhələsinin doğurduğu zərurətdən irəli gələn növbəti konseptual sənədin - "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi bu sahədə dövlət başçısının siyasi iradəsinin və qətiyyətli mövqeyinin növbəti əyani təsdiqi olmuşdur.

Bununla əlaqədar, 29 aprel tarixində Baş Prokurorluqda keçirilmiş əməliyyat müşavirəsində Milli Fəaliyyət Planının icrası ilə əlaqədar Tədbirlər Planı təsdiq edilmişdir.

Ötən bir il ərzində baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 291 şəxs barəsində 202 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmiş, həmçinin 34 əməliyyat tədbiri ilə 36 şəxs cinayət başında yaxalanmış, 13 nəfər axtarışda olan şəxs saxlanılmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 177 cinayət işi başlanmışdır.

Bu müddətdə 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən 116-sı üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmış, habelə aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilmiş, nəticədə 83 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

Xüsusi qeyd edilməlidir ki, korrupsiyaya qarşı daha effektiv mübarizənin təşkili istiqamətində müvafiq dövlət orqanları ilə qurulmuş səmərəli və işgüzar əməkdaşlıq əlaqələri intensivləşmişdir.

Belə ki, qeyd edilən dövrdə Baş İdarəyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən 18, Ədliyyə Nazirliyindən 12, Maliyyə Nazirliyindən 11 və Mədəniyyət Nazirliyindən daxil olmuş 6 material, eləcə də digər 262 cinayət xarakterli məlumat və müraciət əsasında araşdırma aparılmaqla ümumilikdə, 309 cinayət işi başlanmışdır.

*Ədalət mühakiməsində dövlət ittihamının rolu.* Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, hüquq institutlarının möhkəmləndirilməsi məqsədilə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, məhkəmələrin və prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi prosesi sistemli olaraq davam etdirilir.

Həyata keçirilmiş tədbirlər nəticəsində ədalət mühakiməsində iştirak edən prokurorlar tərəfindən insanların hüquq və azadlıqlarının, ictimai maraqların qorunması məqsədilə dövlət ittihamının qanunla verilmiş bütün səlahiyyətlərdən istifadə etməklə yüksək peşəkarlıqla müdafiəsi təmin edilmişdir.

1 oktyabr 2021-ci ildən bu günədək birinci instansiya məhkəmələrində 15932 şəxs barəsində 13903 cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat materiallarına baxılaraq yekun qərarlar qəbul edilmiş, hökm və qərarlardan 1081 apellyasiya protesti verilmiş, onlardan 594-ü təmin edilmişdir. Eyni zamanda apellyasiya instansiyası məhkəmələrinin qərar və hökmlərindən isə 615 kassasiya protesti verilmişdir ki, həmin protestlərin 162-si təmin edilmişdir.

### İctimai maraqların qorunması sahəsində fəaliyyət

Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluğun qarşısında müəyyən edilmiş vəzifələrin hərtərəfli icrası qurumun cinayət təqibindən kənar sferada da roluna və funksionallığına yenidən baxılması zərurətini doğurmuşdur.

Bununla əlaqədar prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, o cümlədən

- məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirakın həyata keçirilməsi,
- məhkəmədə iddia qaldırmaqla mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edilməsi,
- xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması,
- amnistiyanın tətbiq edilməsi məsələsinə məhkəmədə baxılmasında prokurorluğun iştirakının həyata keçirilməsi,
- ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin hüquqi vasitələrlə təmini,
- azyaşlıların hüquqlarının müdafiəsi,
- inzibati xəta haqqında iş üzrə icraatın başlanması,
- ictimai və dövlət maraqlarının, milli təhlükəsizliyin müdafiəsi üçün prokuror təsir tədbirlərinin tətbiqi və digər səlahiyyətlərin həyata keçirilməsi istiqamətində Baş Prokurorluğun yeni strukturunda yaradılmış Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən çoxsaylı tədbirlər görülmüşdür.

Belə ki, ötən bir il ərzində 331 şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilmiş, həmçinin mülki mühakimə icraatı qaydasında və yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələrdə baxılmış işlər üzrə 13 valideynin valideynlik hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə iddialar qaldırılmış, qanunsuz rəftara, əzab və işgəncələrə məruz qalmaları ilə əlaqədar 8 uşaq sığınacaq və körpələr evinə yerləşdirilmişdir.

Bununla yanaşı, ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin hüquqi vasitələrlə təmin olunması diqqət mərkəzində saxlanılmış, bu sahədə əsasən, ağacların qanunsuz kəsilməsi və yerin təkindən istifadə qaydalarının pozulması faktları ilə əlaqədar 182 cinayət işi başlanmışdır.

Qeyd edilən sahələrdə, eləcə də əmək hüquqlarının, idarəçilik qaydalarının həyata keçirilməsi ilə əlaqədar yol verilmiş nöqsan və pozuntuların baş verməsi səbəblərinin aradan qaldırılmasına dair müvafiq dövlət orqanlarına təqdimatlar göndərilmiş, dövlətin və cəmiyyətin maraqlarının qorunması üçün 97 halda fiziki və vəzifəli şəxslərə prokuror təsir tədbiri olan xəbərdarlıq edilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə böyük qələbənin ilk ildönümü ərəfəsində humanizm ənənələrinə sadiqliyin növbəti əyani təcəssümü olmuş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 5 noyabr 2021-ci il tarixdə qəbul edilmiş "8 Noyabr Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarın icrası ilə əlaqədar Cinayət təqibindən kənar icraatlar idarəsinin prokurorlarının iştirakı ilə məhkəmələrdə baxılmış təqdimatlar üzrə 2720 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunmuş, 3282 məhkumun cəzasının çəkilməmiş hissəsi azaldılmış, həmçinin azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 5839 şəxs cəzadan azad edilmiş, 2956 məhkumun cəzası azaldılmışdır.

### Xüsusi müsadirənin önəmi

Prokurorluq orqanları tərəfindən cinayət nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi və xüsusi müsadirənin tətbiq edilməsi ilə əlaqədar əmlakların bərpa olunması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə qurumun yeni strukturunda yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın aşkar edilməsi, izlənməsi və bərpasında istintaq qurumlarına kömək göstərilməsi ilə əlaqədar zəruri tədbirlər görülmüşdür.

Xüsusi qeyd edilməlidir ki, dövlət başçısı cənab İlham Əliyevin 7 may 2021-ci il tarixli fərmanı ilə cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi və şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün dövlət büdcəsinə edilmiş ödənişdən, həmçinin prokuror tərəfindən başlanılmaqla baxılması üçün məhkəməyə göndərilmiş inzibati xətalara dair işlər üzrə tətbiq edilən cərimələrdən daxil olan vəsaitin prokurorluğun xəzinə hesabına köçürülməsinə dair tələblərin müəyyən edilməsi prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılmasına və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsinə mühüm töhfə vermişdir.

Son bir il ərzində prokurorluq orqanlarında aparılmış istintaq tədbirləri ilə istintaqı tamamlanmış cinayət işləri üzrə 117 milyon 974 min manat məbləğində vurulmuş maddi ziyandan 84 milyon 178 min manat, həmçinin qanunvericiliyin tələblərinə əsasən, cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 20 milyon 242 min manat vəsaitin ödənilməsinə nail olunmuş, eləcə də 27 milyon 85 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmuşdur.

### Qanunvericiliyə dəyişikliklər və Konstitusiya Məhkəməsinə sorğular

Prokurorluq orqanlarında normayaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə ötən bir il ərzində səmərəli işlər görülmüş, Baş Prokurorluq tərəfindən Konstitusiya Məhkəməsinə 10 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 9 yazılı rəyin verilməsi təmin edilməklə konstitusiya icraatında iştirak edilmişdir.

Qeyd edilən dövrdə prokurorluğun fəaliyyət sahələrinə aid müxtəlif qanunvericilik aktlarına dəyişikliklər edilməsini nəzərdə tutan 26 normativ hüquqi akt layihəsinin hazırlanaraq normayaratma təşəbbüsü qaydasında verilməsi təmin edilmiş, həmçinin 3 qanuna dəyişiklik edilməsinə dair təkliflər Nazirlər Kabinetinə göndərilmişdir.

Bundan başqa, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, insan hüquq və əsas azadlıqlarının müdafiəsinə dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələr, elmi-metodiki və digər beynəlxalq təcrübə, nəzəri məsələləri əhatə edən İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı yaradılmaqla, 2359 sayda materialın yerləşdirilməsi təmin edilmişdir.

### Kadr korpusunun gücləndirilməsi

Bacarıqlı və savadlı gənclərin seçilərək dövlətin layiqli qulluqçuları kimi dövlət idarəetməsində iştirakının təmin edilməsi məqsədilə Ulu Öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi nəticəsində digər dövlət qurumları arasında ilk dəfə olaraq məhz prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsinə başlanılmışdır.

2002-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə keçirilmiş 23 müsabiqə üzrə uğur qazanmış 1094, o cümlədən ötən il ərzində keçirilmiş 2 müsabiqə əsasında 183 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişlər.

Diqqətəlayiq haldır ki, 2002-ci ilədək prokurorluq orqanlarında qulluq keçən 30 yaşınadək işçilərin sayı prokurorluq əməkdaşlarının ümumi sayının 3 faizinə bərabər olduğu halda, hazırda kadr korpusunun 84 faizini həmin dövrdən qəbul edilmiş əməkdaşlar təşkil edir.

Eyni zamanda həyata keçirilən kadr siyasətində gender bərabərliyinə diqqət yetirilməklə aparılan son islahatlar çərçivəsində prokurorluqda gənc qadın əməkdaşlara ilk dəfə olaraq ibtidai araşdırmaya prosessual nəzarətin həyata keçirilməsi kimi mühüm vəzifələr həvalə edilmiş, bəziləri Baş Prokurorluğun idarə və şöbə rəisləri, həmçinin rayon prokuroru vəzifələrinə təyin edilmişlər.

Diqqətə çatdırılmalıdır ki, gənc hüquqşünasların prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq məqsədilə cari ilin 22 aprel tarixində 50 ştat vahidi üzrə növbəti müsabiqə elan edilməklə yaxın günlərdə müsabiqənin ilkin mərhələsi olan test imtahanının keçirilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda "könüllülük hərəkatının" davamlılığının təmin olunması, eləcə də hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclərə qurumun fəaliyyətinin məzmunu və iş şəraiti ilə tanışlıq imkanının yaradılması, onların bilik və bacarıqlarının artırılması, asudə vaxtının səmərəli təşkili məqsədilə hazırda prokurorluq orqanlarında 20 tələbənin ictimai köməkçi qismində fəaliyyətə cəlb olunması təmin edilmişdir.

Ümumilikdə son bir il ərzində xidməti fəaliyyətlərində fərqlənmiş 210 prokurorluq işçisi və 32 dövlət qulluqçusu Baş Prokurorluq üzrə əmrlərlə həvəsləndirilmişlər.

### Vətəndaş məmnunluğunun təmin olunması

Dövlət başçısının vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunması, onların tələbləri və problemlərinin obyektiv həlli ilə bağlı tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaş müraciətlərinə baxılması işinin düzgün təşkili diqqətdə saxlanılmışdır.

Vətəndaşların müraciət imkanlarının artırılmasında mühüm önəmə malik fasiləsiz və ödənişsiz fəaliyyət göstərən 961 saylı "Çağrı Mərkəzi" vasitəsilə vətəndaşların müraciətləri üzrə müvafiq hüquqi izahlar verilmiş, bir neçə halda aparılmış araşdırma nəticəsində cinayət işləri başlanmışdır.

Ötən bir il ərzində vətəndaş məmnunluğunun təmini istiqamətində Baş Prokurorluqda 1903, o cümlədən tərəfimdən 151 vətəndaş qəbul edilərək bir sıra məsələlərlə bağlı edilən müraciətlər yerində həll olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq tərəfimdən cari il ərzində respublikanın 18 rayonunda, ümumilikdə, 56 bölgədən 900-dən artıq vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmişdir.

Bu sahədə sosial şəbəkələr vasitəsilə 319, elektron poçtla daxil olmuş 9674 müraciətə baxılmış, həmçinin şəxsiyyəti müəyyən olunan sosial media istifadəçilərinin cinayət prosesini həyata keçirən orqanın qərar və ya hərəkətlərindən narazılıq ifadə olunan müraciət, şərh və ya paylaşımları üzrə əlavə araşdırma tələb edilməyən 384 halda müvafiq qaydada cavablar verilmişdir.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla onların dərhal qəbul edilmələri, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsi bütün prokurorluq işçilərindən tələb edilməkdədir.

Prokurorluğa ictimai etimadın artması, şəffaflığın və hesabatlılığın təmini diqqət mərkəzində saxlanılmaqla, son bir il ərzində 1330 məlumat hazırlanaraq Baş Prokurorluğun veb-saytında və sosial media səhifələrində yerləşdirilmişdir.

### Qanunçuluğun və şəffaflığın qorunması

Ümummilli Lider Heydər Əliyevin *"Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır"* sözləri, həmçinin dövlət başçısı cənab İlham Əliyevin məmur-vətəndaş münasibətlərinə, nümunəvi dövlət məmuruna dair tələb və tövsiyələri qurumun müasir çağırışlara uyğun fəaliyyətinin təkmilləşdirilməsinin əsas meyarına çevrilmişdir.

Son bir il ərzində prokurorluq işçilərinin xidməti fəallığının və məsuliyyət hissinin artırılması istiqamətində *ad hoc* qurumlar olan Etik Davranış Komissiyası və İntizam Komissiyasının fəaliyyəti mühüm önəm daşımaqla intizam xətasına yol vermiş işçilərin məsuliyyətə cəlb olunmalarının kollegial surətdə müzakirə olunaraq müvafiq qərarların qəbulu zamanı obyektivlik və ədalətlilik təmin edilmişdir.

Təəssüflə qeyd edilməlidir ki, ötən ilin 1 oktyabr tarixindən keçən dövrdə prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən 47 əməkdaş intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 6-sı tutduğu vəzifədən azad edilmiş, 4-ü isə prokurorluq orqanlarından xaric olunmuşdur.

İntizam məsuliyyətinə cəlb edilmiş prokurorluq əməkdaşları barəsində Xidməti araşdırmalar idarəsində toplanmış xidməti yoxlama materiallarının 23-nə Baş Prokurorluğun İntizam Komissiyasında, 11-nə isə Etik Davranış Komissiyasında baxılmışdır.

### Yeni informasiya texnologiyalarının tətbiqi və elektron prokurorluq

Prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyin artırılması işində müstəsna önəmə malik cənab Prezidentin 7 may 2021-ci il tarixli fərmanında əksini tapmış "Elektron prokurorluq" informasiya sisteminin yaradılması istiqamətində intensiv surətdə işlər yerinə yetirilmiş, sistemin 3 modulu istifadəyə verilməklə Ədliyyə Nazirliyinin "Elektron məhkəmə" İnformasiya Sisteminə inteqrasiya edilməsi üçün zəruri işlər görülmüşdür.

"Elektron prokurorluq" informasiya sistemindən tam şəkildə istifadənin həyata keçirilməsi prokurorluq orqanlarının funksional vəzifələrinin müasir dövrün elmi-texniki nailiyyətləri tətbiq edilməklə yerinə yetirilməsinə, görülən işləri tam elektronlaşdırılmaqla informasiya ehtiyatlarının analitik təhlilini aparmağa və son nəticədə gündəlik işimizdə effektivliyin artmasına rəvac verəcəkdir.

### Maddi-texniki təminat

Son bir il ərzində prokurorluq orqanlarında mərkəzləşmiş optik telefon rabitəsinə keçid təmin olunmaqla qurumun avtomobil parkı əhəmiyyətli şəkildə yenilənmiş, bir sıra rayon prokurorluqlarının əsaslı təmiri aparılmış və bir neçə rayon prokurorluğu üçün yeni inzibati binaların tikintisi nəzərdə tutulmuşdur.

Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə növbətçilik əsasında fəaliyyət göstərən rayon prokurorluqları üçün müəyyənləşdirilmiş inzibati binalarda cari təmir işlərinin aparılması təşkil edilməklə binalar müasir qurğu, avadanlıq, informasiya-kommunikasiya xətləri, mebel və kompüter avadanlıqları ilə təchiz edilmişlər.

Qeyd edilməlidir ki, prokurorluqda aparılan islahatlarla qurumun fəaliyyəti yüksək şəffaflıq və hesabatlılıq standartlarına əsasən qurulmuş, Baş Prokurorluğun Əmək Məsələləri Komissiyasının fəaliyyəti də bu sahədə lüzumsuz xərclərin qarşısının alınmasında mühüm tənzimləmə elementi olmuşdur.

### Elm-Tədris Mərkəzi və Elmi-Məsləhət Şurasının fəaliyyəti

Son bir il ərzində prokurorluq işçilərinin nəzəri və praktiki biliklərinin artırılması üçün təlimlər keçirilmiş, zəruri tədris-metodiki vəsaitlər hazırlanmışdır.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin uğurlu praktikalar əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə bu ilin may ayında "ADA" Universiteti, sentyabr ayında isə Naxçıvan Dövlət Universiteti ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında geniş və səmərəli əməkdaşlığı əhatə edən memorandumlar imzalanmışdır.

Ötən ilin 1 oktyabr tarixindən Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən1041 dinləyici, o cümlədən:

- 921 prokurorluq işçisi üçün 7 təlim, kurs və seminar;
- Daxili işlər orqanlarının istintaq qurumlarının 40 əməkdaşı;
- Dövlət Gömrük Komitəsinin 45 işçisi;
- İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 35 işçisi üçün təlimlər təşkil edilmişdir.

Prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki kömək göstərilməsi məqsədilə yaradılmış prokurorluq işçiləri ilə yanaşı, hüquqşünas alimlər, dövlət qurumlarının əməkdaşları və digər hüquq-mühafizə orqanlarının təcrübəli işçilərindən ibarət Baş prokuror yanında Elmi-Məsləhət Şurası ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasını, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarının müəyyən edilməsini təmin edir.

### Beynəlxalq əməkdaşlığın inkişafı davamlı xarakter kəsb edir

Dövlət başçısının 1 may 2020-ci il tarixdə baş prokuror vəzifəsinə yeni təyinatla əlaqədar qəbul edərkən verdiyi xüsusi tapşırıq və tövsiyələrinə müvafiq olaraq beynəlxalq əməkdaşlıq sahəsində aşağıdakı əsas istiqamətlər üzrə işlər görülmüşdür.

### Beynəlxalq təşkilatlarla əməkdaşlıq

- Dünya prokurorlarının yeganə təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının ötən ilin oktyabr ayında keçirilmiş 26-cı ümumi yığıncağında Azərbaycanın baş prokuroru yekdilliklə növbəti dəfə 3 illik müddətə qurumun vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Təşkilatın ümumi yığıncağında keçirilmiş səsvermə ilə 2024-cü ildə baş tutacaq assosiasiyanın 29-cu illik konfransı və ümumi yığıncağına ölkəmizin evsahibliyi etməsi qərara alınmaqla, təşkilatla birgə zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

- Ötən dövrdə ölkəmizin dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nailiyyətlər Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir.
- Türkdilli dövlətlərin prokurorluq orqanları arasında əməkdaşlığın daha da inkişafı istiqamətində ötən ilin noyabrında Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının təsis edilməsi mühüm əhəmiyyətə malikdir.
- Dövlət ittihamının müdafiəsi sahəsində qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə 2022-ci il və sonrakı müddət üçün həyata keçirilməsi nəzərdə tutulan Avropa İttifaqının TAİEX proqramı çərçivəsində əməkdaşlığa başlanılmaqla may ayında ilk ekspert missiyası təşkil edilmişdir.
- Xüsusi müsadirə sahəsində qanunvericilik və institusional bazanın beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində 1 fevral 2022-ci il tarixdən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvinninq layihəsinin icrasına başlanılmışdır.

### Xarici ölkələrin müvafiq qurumları ilə ikitərəfli münasibətlər

- Son bir il ərzində rəhbərlik etdiyim nümayəndə heyəti Almaniya, İtaliya, Fransa, Rusiya Federasiyası, İran, Ukrayna, Belarus, Gürcüstan və Özbəkistanda işgüzar səfərlərdə olmuş, həmin səfərlər çərçivəsində xarici ölkələrin baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə çoxsaylı görüşlər keçirərək mövcud əlaqələr və gələcək əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.
- Bu dövrdə Səudiyyə Ərəbistanı Krallığının baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacib və Qətər Dövlətinin baş prokuroru İssa bin Səad Əl-Nuaiminin rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə səfərləri baş tutmuş, Qətər Dövlətinin Baş Prokurorluğu ilə ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.
- Beynəlxalq Prokurorlar Assosiasiyasının 27-ci illik konfransı və ümumi yığıncağı çərçivəsində Türkiyə, Böyük Britaniya, Sinqapur, Monqolustan, Litva və Gürcüstanın prokurorluq orqanlarının rəhbərləri, həmçinin Avropa Birliyinin Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyinin (Eurojust) prezidenti ilə ikitərəfli görüşlər keçirilməklə tərəfləri maraqlandıran məsələlər müzakirə edilmişdir.

### Cinayət işləri üzrə qarşılıqlı əməkdaşlıq

- Ötən bir il ərzində cinayət törətməklə istintaqdan gizlənmiş 28 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilmişdir.
- Eyni zamanda cinayət işləri üzrə xarici dövlətlərdən daxil olan hüquqi yardım haqqında 104 sorğu müvəffəqiyyətlə icra edilmişdir.
- Xarici dövlətlərə göndərilən 228 hüquqi yardım haqqında sorğudan 68-i icra edilmiş, 157-nə hazırda baxılmaqla 3 sorğunun icrasından imtina edilmişdir.

### Gənc kadrların beynəlxalq sahədə təcrübə qazanmaları

- Cari il ərzində Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi Baş Direktoratlığı, Avropa İnsan Hüquqları Məhkəməsi və Beynəlxalq Prokurorlar Assosiasiyasının hər birinə 1 prokurorluq işçisi ezam olunmuş, həmçinin 3 nəfər hazırda Beynəlxalq Antikorrupsiya Akademiyasında magistr pilləsi üzrə qiyabi təhsil almaqla 2 nəfər isə həmin təhsil ocağının yay kurslarında iştirak etmişlər.
- Bununla yanaşı, prokurorluq əməkdaşları GRECO və OECD kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən digər ölkələrin korrupsiyaya qarşı mübarizə üzrə fəaliyyətinin dəyərləndirilməsi prosesinə ekspert qismində cəlb edilmişlər.

### Hərbi prokurorluq orqanlarının fəaliyyəti

Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində Hərbi prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət qurumları arasında sağlam və işgüzar əlaqələrin qurulması nəticəsində son illər ölkədə hərbi xidmət əleyhinə olan cinayətlərin və hərbi qulluqçular tərəfindən törədilən digər cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalması, fərarilik cinayətinin isə demək olar ki, ümumiyyətlə qeydə alınmaması müşahidə edilməkdədir.

Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilən sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 aprel 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması, o cümlədən qısa zaman kəsiyində müasir tələblərə cavab verən Qubadlı və Kəlbəcər hərbi prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb etmişdir.

Bu gün yaranmasının 104-cü ilini qeyd etdiyimiz Azərbaycan Prokurorluğu hər bir dövlət təsisatı kimi ölkəmizin yeni inkişaf mərhələsində, irimiqyaslı və qlobal əhəmiyyətə malik hədəflərin həyata keçirilməsi istiqamətində böyük məsuliyyət və peşəkarlıqla fəaliyyətini qurmaq üçün bütün qüvvələrini səfərbər edir.

*Prokurorluq işçiləri vətəninə və xalqına sədaqətlə xidmət etməyə, respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak etməklə prokurorluğun fəaliyyətinin daha da müasirləşdirilməsinə, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılmasına, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında yeni uğurlar əldə edilməsinə çalışacaqlar.*

**Kamran ƏLİYEV,**
***Azərbaycan Respublikasının baş prokuroru,***
***I dərəcəli dövlət ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti, hüquq elmləri üzrə fəlsəfə doktoru***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# İlham Əliyevin sülh gündəliyi regionda davamlı sabitliyin təminatıdır

Tarix sübut edir ki, hər bir müharibənin sonu sülh müqaviləsinin imzalanması ilə nəticələnir, məğlub tərəf qalibin diktə etdiyi reallıqlarla barışmaq məcburiyyətində qalır. Bundan sonra tərəflər arasında müxtəlif istiqamətli sazişlər də imzalana bilir.

Amma təəssüflər olsun ki, işğalçı Ermənistanla Azərbaycan arasında 30 il davam edən keçmiş Dağlıq Qarabağ münaqişəsinə iki ilə yaxın müddətdə son qoyulsa da, hələ tərəflər arasında sülh müqaviləsi imzalanmayıb. Bunun da səbəbləri cəmi 44 günə Azərbaycan qarşısında diz çöküb savaşın dayandırılmasını xahiş edən Ermənistanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatlarıdır.

Real vəziyyət isə budur ki, qalib tərəf kimi Azərbaycan sazişin imzalanması üçün əlindən gələni, üzərinə düşən öhdəliyi reallaşdırmağa tam hazır vəziyyətdə olduğu halda rəsmi İrəvan hələ də bəhanələr gətirməklə prosesi uzadır. Bu azmış kimi, bölgədə sülhün-təhlükəsizliyin təmin olunmasını istəyən böyük güclər, beynəlxalq təşkilatlar bu ölkəyə sülh müqaviləsinin imzalanması prosesini yubatdığı üçün heç bir təzyiq göstərmirlər. Necə ki, Ermənistanın 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayarkən ortaya qoyduqları "mövqe" kimi... Yəni hazırda da eyni ssenari davam edir.

## Ermənistanın təxribatlarının məqsədi nədir?

Lakin bu cür vəziyyət çox davam edə bilməz. Ermənistan gec-tez bu sazişə imza atmalıdır. Ona görə ki, artıq Dağlıq Qarabağ adlı münaqişə yoxdur, İkinci Qarabağ müharibəsi bu məsələni həll edib, indi sülh zamanıdır.

Qalib komandan kimi İlham Əliyev Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir.

Azərbaycan sülhün, qarşılıqlı olaraq Ermənistanla bir-birilərinin ərazi bütövlüyünü tanımaqla Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün konkret addımlar atır. İlham Əliyev bütün çıxışlarında sülh prosesindən yayınan və bunun alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, barış sazişinin imzalanmaması bu ölkə üçün böyük fəlakət ola bilər.

Maraqlıdır, bəs Ermənistanın təxribatlarının məqsədi nədir?

Bəllidir ki, 2020-ci ildəki acı məğlubiyyətdən və hərbi-diplomatik iflasdan sonra Ermənistanda revanşizm meyilləri getdikcə güclənməyə başladı. Keçmiş hərbi xunta hakimiyyəti satqınlıqda günahlandırmaqla xalqı iqtidara qarşı üsyan etməyə çağırıb, ölkədə vəziyyəti gərginləşdirdi. Bu azmış kimi, ermənilər Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdikləri Azərbaycan torpaqlarında terrorçu dəstələrinin əli ilə təxribatlar törətdi. Lakin Azərbaycan Ordusunun "Qisas" və "Qətiyyətli cavab" əməliyyatları ilə qarşı tərəf ağır zərbə almaqla susduruldu. Bütün bu təxribatların sülh sazişi ilə bağlı aparılan danışıqlara xələl gətirmək, prosesi uzatmaq üçün baş verdiyi aydın görünürdü.

Məlumdur ki, İlham Əliyevin sülh müqaviləsinin bağlanması üçün irəli sürdüyü 5 təkliflə Ermənistan rəhbərliyi razılaşıb. Amma son proseslər göstərdi ki, bu, yalnız sözdədir. Əməldə isə vəziyyət tam başqa istiqamətə yönəlib. Avropa İttifaqı Şurasının Prezident Şarl Mişelin təşəbbüsü ilə keçirilən görüşlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın sülh müqaviləsinin imzalanması, eləcə də İlham Əliyevin 5 prinsipi ilə razılaşması ilə bağlı fikirlər səsləndirməsi fonunda bu ölkənin atdığı son təxribatçı addımlar göstərdi ki, rəsmi İrəvan yenə çirkin oyunlar oynayır. Bunu baş verən proseslər və reallıqlar bir daha təsdiqləyir. Diqqəti bir daha ona yönəldək.

Üçtərəfli Bəyanatda əksini tapmış tələblərin icrasından boyun qaçıran Ermənistan müxtəlif bəhanələr gətirməklə Azərbaycan ərazisində hələ də qalmış hərbçilərini və texnikalarını çıxarmır. Bununla da müxtəlif yollarla Qarabağ və Şərqi Zəngəzurda hərbi mövcudluğunu qoruyub saxlamağa və gücləndirməyə çalışır. Məhz bu qeyri-qanuni hərbi birləşmələrin vasitəsilə avqustun 3-də və sentyabrın 12-14-də ardıcıl şəkildə təxribatlar törətməsi deyilən fikirlərin bariz nümunəsidir.

Məğlub ölkə hazırda işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın yalnız öz qüdrəti hesabına həyata keçirdiyi işlərin miqyasını aydın görür və anlayır ki, tezliklə Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası qaçılmaz olacaq. Ona görə də bu prosesə zərbə vurmağa çalışır.

Digər bir məqam isə odur ki, son hadisələr artıq Ermənistanın oriyentirlərini dəyişdiyini və açıq şəkildə Qərbdə dəstək axtardığını göstərdi. Buna ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri və onun qeyri-ciddi açıqlamaları, hazırda müxtəlif ölkələrdə İrəvana dəstək göstərərək "ərazi bütövlüyünün pozulmasının" yolverilməzliyi barədə ağızdolusu danışan siyasətçilərin "aktivləşməsi" də bir daha təsdiqləyir.

Maraqlıdır, görəsən, Ermənistanın 30 illik işğalı dövründə bu adamlar niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nədən müdafiə etmirdilər? İndi regionda yaranan yeni reallıqları niyə qəbul etmək istəmirlər?

Bütün bunlar əlbəttə ki, erməni lobbisinin fəaliyyətinin nəticəsidir. Əslində isə regionda təhlükəsizliyin təmin olunmasını istəyən dünya gücləri Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görməli, onun əsl niyyətini düzgün qiymətləndirməli və İrəvanı sərsəm iddialardan əl çəkməyə məcbur etməklə sülh prosesinə öz töhfələrini verməlidirlər. Amma görünən odur ki, Ermənistan regionda gərginliyin qalmasında maraqlıdır. Bu ab-havanı saxlamaqla, bu ölkə beynəlxalq ictimai rəylə manipulyasiya edir və Azərbaycanı hədəfə gətirməyə çalışır. Ermənistanın bu təxribat və siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək, mümkündürsə iflasa uğratmaqdır. Bu ölkə regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir və açılan yeni perspektivlərə zərbə vurmağa can atır.

## Bütün dövrlərdə sülhün tərəfdarı olan İlham Əliyev yenə də Ermənistana çıxış yolu göstərir

Vətən müharibəsindən öncə boş-boş bəyanatlar verən, öz ordusunun gücünə güvənən bir ölkənin cəmi 44 günə Azərbaycan qarşısında diz çöküb yalvarması heç də uzaq tarix deyil. Cəmi 2 il bundan öncə baş verən bu həqiqətlərə dünya şahidlik edib. Lakin bu müharibədən öncə də, savaşdan sonra da qalib ölkənin müzəffər sərkərdəsi kimi İlham Əliyev proseslərin sülh yolu ilə tənzimlənməsinin tərəfdarı olduğunu bəyan edib. Müharibədən öncə İlham Əliyev bütün beynəlxalq təşkilatların ali tribunasından BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin icrasının yerinə yetirilməsinin vacibliyini dünyaya çatdırırdı. Münaqişənin qan tökülmədən sülh yolu ilə həll olunmasını istəyən Azərbaycan Prezidenti Ermənistana yol göstərirdi. Amma zaman göstərdi ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində hüququn gücü keçərli deyil.

Azərbaycan öz gücü ilə 30 il işğal altında olan torpaqlarını düşməndən təmizlədi və Ermənistanı kapitulyasıya aktına imza atmağa məcbur etdi. Bundan sonra regionda yeni reallıqlar yarandı və İlham Əliyev yenə də Ermənistanı sülh müqaviləsi imzalamağa dəvət etdi. O müqavilə ki, məhz Ermənistanın sosial-iqtisadi fəlakətdən qurtulmasını şərtləndirən sənəd sayılır.

Sentyabrın 21-də Laçına, sentyabrın 27-də, Anım günündə Füzuliyə səfərlərində qalib Ali Baş Komandan bir daha Ermənistanın əsl məqsədinin nəyə xidmət etdiyini dünyaya çatdırdı və həmişə olduğu kimi, yenə də məğlub ölkəyə çıxış yolu göstərdi. Prezident dedi ki, törətdiyi təxribatlar, səsləndirdiyi iddialar Ermənistanın sülh istəmədiyini, yenə də revanşist fikirlərlə yaşadığını göstərir. İlham Əliyev bunu faktlar əsasında bir daha göstərərək bildirdi ki, Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif edib. Sözdə onları qəbul ediblər, amma əməldə iş görmürlər. Yenə də vaxt uzatmaq taktikası seçiblər. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Azərbaycan isə dəmir yolunu, avtomobil yolunu Zəngilana qədər çəkib. Gələn ilin sonuna qədər hər iki layihə Ermənistan sərhədinə çatacaq. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar. Bu azmış kimi tərk etdikləri ərazilərimizə minalar basdırırlar. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənib və bu minalar 2021-ci ildə basdırılıb, yəni müharibədən sonra. Bu, əlbəttə ki, Azərbaycana qarşı açıq terror hərəkətidir. Müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb.

Prezident dedi ki, Ermənistanın Azərbaycana qarşı müharibəsi davam edir. Amma bunun da həddi var. Dəfələrlə bu ölkəyə xəbərdarlıq edilib ki, bunun nəticəsi ancaq onlar üçün ağır ola bilər, 44 günlük müharibədəki aqibətlərini unutmasınlar.

Laçından, Füzulidən bir daha Ermənistana və onun havadarlarına səslənən İlham Əliyev bəyan etdi ki, Azərbaycan müharibə yox, sülh müqaviləsinin imzanlamasını istəyir. Ancaq əgər Ermənistan yenə də təxribat törədəcəksə, layiqli cavabı veriləcək. Ermənistan yaxşı fikirləşməlidir. Artıq Azərbaycanla heç kim ultimatum dili ilə danışa bilməz və ermənilər heç kimə də bel bağlamasınlar. Azərbaycanı heç kim və heç nə dayandıra bilməz. Ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

İndi hansı qərarın veriləcəyi rəsmi İrəvandan asılıdır. Ya sülh sazişini imzalayaraq dövləti və illərdir sosial-iqtisadi böhran şəraitində çabalayan erməni xalqını bataqlıqdan qurtaracaq, ya da bundan imtina edərək ölkəni daha acınacaqlı duruma, məhvə sürükləyəcək. Çünki Ermənistana yaxşı bəllidir ki, İlham Əliyev sözünə, vədinə sadiq lider kimi, verdiyi qərarlarda hər zaman qətiyyət nümayiş etdirib. Müzəffər Ali Baş Komandanın söylədiyi kimi, əgər təklif edilən 5 prinsip əsasında sülh müqaviləsinin imzalanmasını qəbul etməsə, onda Azərbaycan Ermənistanın müstəqilliyini tanımadığını rəsmən elan edəcək.

Hər şey açıq şəkildə ortadadır. İlham Əliyev konkret mövqe nümayiş etdirərək həm Qarabağ və Şərqi Zəngəzuru yenidən qurur, həm də sülh danışıqlarına hazır olduğunu əməlləri ilə sübuta yetirir. Azərbaycan Prezidentinin bu istiqamətdəki fəaliyyəti beynəlxalq birlik tərəfindən də təqdir edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## ZƏFƏR gündəliyi

## 1 oktyabr

Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları uğurla davam edir. Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21:30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilir.

Bu müddət ərzində düşmənin ümumi itkiləri belədir:

- 200-dək tank və digər zirehli texnika;
- 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 30 ədəd hava hücumundan müdafiə vasitələri;
- 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 5 silah-sursat anbarı;
- 110-dan artıq avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

❖ ❖ ❖

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Səhər saatlarından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfindən tələb edir ki, ölkəmizin ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Əks təqdirdə adekvat cavab tədbirləri görüləcək.

❖ ❖ ❖

Ermənistan ordusu təminatda ciddi problemlərlə üzləşir. Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir.

Məlum olur ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhədəki hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.



❖ ❖ ❖

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilir.



❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin daha bir neçə hava hücumundan müdafiə vasitələri və yaylım atəşli reaktiv sistemlərini məhv edir.



❖ ❖ ❖

Belarus Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə telefonla zəng edərək təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanır.

İlham Əliyev belaruslu həmkarına məlumat verərək bildirir ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Dövlət başçısı əlavə edir ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

# Silahlı Qüvvələrin mayoru şəhid Natiq İsmayılovun ailəsi ziyarət edilib

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Pərvinə İsmayılova 44 günlük Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin mayoru Natiq İsmayılovun ailəsini ziyarət edib.







Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Hərbi Akademiyanın məzunu olan Natiq İsmayılov 2016-cı ilin Aprel döyüşləri zamanı və 44 günlük Vətən müharibəsində misilsiz xidmətlər göstərib. Mayor 2020-ci il oktyabrın 17-də Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Natiq İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Görüşdə bildirilib ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən hər bir Vətən övladının xatirəsi hamımız üçün əzizdir. Elə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin də fəaliyyət istiqamətlərindən biri müharibə veteranları, əlilliyi olan şəxslər və şəhid ailələrinə xidmətlə bağlıdır. Şəhid mayor Natiq İsmayılovun iki övladı mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə bir neçə təlimə cəlb edilib. Onlar bütün fədakar Vətən övladlarının dəyərli əmanətləri kimi diqqət və qayğı ilə əhatə olunurlar.

# Belçika Azərbaycan Evində anım guşəsi yaradılıb

Brüssel şəhərində fəaliyyət göstərən Belçika Azərbaycan Evində 27 Sentyabr Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidləri yad edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Belçika Azərbaycanlıları Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Evində yaradılan anım guşəsinə torpaqlarımızın erməni işğalından azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, üçrəngli bayrağımızın işğaldan azad edilmiş Qarabağda yenidən ucaldılması naminə canlarından keçmiş şəhidlərimizin xatirəsinə gül çələngi qoyulub, tər çiçəklər düzülüb və orada şamlar yandırılıb.

Belçika Azərbaycan Evini ziyarət edənlərə iki il əvvəl qəsbkar Ermənistanın genişmiqyaslı hücumu nəticəsində Vətən müharibəsinin başlandığı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun beynəlxalq hüquq normalarına uyğun olaraq torpaqlarımızı işğaldan azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması barədə ətraflı məlumat verilib.

# Azərbaycan-Çin əməkdaşlığı strateji əhəmiyyət kəsb edir

Qədim sivilizasiyalardan birinin beşiyi olan Çin dünya mədəniyyəti xəzinəsinə əsrarəngiz töhfələr vermişdir. Bir sıra mühüm kəşf və ixtiraların vətəni olan bu ölkə tarixi İpək yolunun üzərində yerləşdiyinə görə daha çox dövlət ilə iqtisadi, mədəni, ticarət əlaqələri saxlamalı olmuşdur. Bəşəriyyət ilk dəfə kompas, barıt, kağız, kitab çapı, kağız pul ilə tanışlığa görə çinlilərə borcludur.



Uzun əsrlər boyu kəndli ölkəsi kimi tanınan Çin hazırda dünyanın ikinci böyük iqtisadiyyatına malikdir. Təsadüfi deyil ki, 2021-ci ildə Çində nominal ümumi daxili məhsulun həcmi 17.7 trilyon dollar (müqayisə üçün qeyd edək ki, ABŞ-da bu göstərici 23 trilyon dollardır) olmuşdur. 2022-ci ildə isə Çində nominal ümum daxili məhsulun 20 trilyon dollara çatacağı proqnozlaşdırılır. Bu gün Çinin valyuta ehtiyatları 3.2 trilyon (bəzi mənbələrə görə 4 trilyon) dollar təşkil edir. Bununla belə, Çinin xarici borcu 13 trilyon dollara bərabərdir.

Çin Xalq Respublikası Azərbaycanın müstəqilliyini 27 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər isə 2 aprel 1992-ci ildə qurulmuşdur. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyev Çinə səfər etmiş və həmin səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoymuşdur. O vaxtdan bəri ardıcıl surətdə Azərbaycan Çinin "Vahid Çin" siyasətini, Çin isə öz növbəsində Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir.

Prezident İlham Əliyevin 2005, 2015 və 2019-cu illərdə Çinə dövlət səfərləri ikitərəfli münasibətlərin inkişafına təkan verdi. 2019-cu ilin aprel ayında Azərbaycan Prezidentinin Pekində keçirilən II Kəmər və Yol Beynəlxalq Əməkdaşlıq Forumunda şəxsən iştirak etməsi ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına gətirib çıxardı. 2022-ci il sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü oldu. Hər iki tərəf qarşılıqlı münasibətlərin inkişafından məmnun qaldıqlarını ifadə etdilər.

Bir sıra regional və beynəlxalq problemlərin həllində çox vaxt Azərbaycanla Çinin mövqeləri üst-üstə düşür. Rəsmi Pekin beynəlxalq kürsülərdən Azərbaycanın haqlı mövqeyini həmişə müdafiə etmişdir. Çin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın sərhəd toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Çin BMT Təhlükəsizlik Şurasının veto hüququna malik 5 üzvündən biridir. Onun beynəlxalq məsələlərə geniş təsir imkanlarını nəzərə alsaq, bu cür prinsipial məsələlərdə iki ölkənin rəsmi mövqelərinin üst-üstə düşməsi Azərbaycan üçün çox vacibdir.

Qarşılıqlı siyasi münasibətlərin normal məcrada inkişafını hər iki ölkənin dövlət başçıları dəfələrlə qeyd etmişlər. Prezident İlham Əliyev Azərbaycanın Çin ilə əməkdaşlığını strateji əhəmiyyət kəsb edən əlaqələr hesab edir. Bunu 2022-ci il aprelin 1-də Xarici İşlər Nazirliyində Azərbaycan və Çin arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilən tədbirdə çıxış edənlər də vurğuladılar.

Siyasi-diplomatik münasibətlərin müsbət məcrada inkişafı Çin və Azərbaycan arasında bir çox sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, nəqliyyat, enerji, rabitə, təhsil, mədəniyyət, incəsənət sahələrində əməkdaşlığın inkişafı üçün əlverişli mühit yaradır.

Azərbaycan Çinin simasında idxalat və ixracat mallarına malik böyük bir bazarla əlaqə saxlamaqda olduqca maraqlıdır. Çin də eyni zamanda Azərbaycan bazarına can atır. Son zamanlar Azərbaycanın Çin bazarında geniş təmsil olunması müşahidə olunur. Təsadüfi deyil ki, hazırda Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri fəaliyyət göstərir. Həmçinin Çin şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində investisiya layihələrində iştirakı iqtisadi əməkdaşlığın daha da inkişafı üçün əsas meyardır. Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində 200-dən çox Çin şirkəti fəaliyyət göstərir.

Azərbaycan Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Son 20 ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 34 dəfə artaraq, 2021-ci ildə təqribən 1,8 milyard dollara çatmışdır.

İki ölkə arasında nəqliyyat-logistika, infrastruktur sahələrində də sıx faydalı əməkdaşlıqlar mövcuddur. Təqdirəlayiq haldır ki, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində də səmərəli əməkdaşlıq həyata keçirilir.

Azərbaycan və Çin xalqlarını hələ iki min il bundan əvvəl tarixi İpək yolu birləşdirirdi. Bu gün isə iki ölkə arasında artıq yeni formatda bərpa olunmuş bu ənənəvi marşrut çərçivəsində sıx fəaliyyət həyata keçirilir. İnanırıq ki, Zəngəzur dəhlizi Çinin "Bir kəmər, bir yol" təşəbbüsündə "Orta Dəhliz" rolunu oynayacaq.

Əgər okean və dəniz yolu ilə yüklər Çindən Avropaya 30-35 günə çatdırılırsa, eyni yüklər quru yolla Azərbaycan üzərindən Avropaya 13-15 günə çatdırıla bilər. Bu isə kapitalın dövriyyəsinin sürətlənməsinə və nəticə etibarilə onun sahibinə 2-3 dəfə çox gəlirin gətirilməsinə şərait yaradılması deməkdir.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsi üçün əlverişli şərait yaratmışdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işlərinə daha çox Çin şirkətinin cəlb olunması Azərbaycan hakimiyyəti və işgüzar dairələri tərəfindən razılıqla qarşılanmışdır. Bu il sentyabrın 5-də keçirilmiş "Azərbaycan - investisiya və ticarət imkanları" mövzusunda forum müxtəlif infrastruktur sahələrə Çin kapitalının cəlb olunması üçün mühüm addım oldu. Sevindirici haldır ki, Çinin "Huawei" şirkəti sözügedən ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrində iştirak edir və hazırda digər Çin şirkətləri ilə də müxtəlif layihələr üzrə danışıqlar aparılır.

1995-ci ildən bəri Çindən Azərbaycana təqribən 900 milyon dollar, Azərbaycandan Çinə isə təqribən 1.3 milyard dollar həcmində investisiyalar yatırılmışdır.

İki ölkə arasında qardaşlaşmış şəhərlər təcrübəsindən də istifadə olunur. Hazırda Gəncə şəhəri ilə Çinin Çindao şəhəri arasında dostluq və əməkdaşlıq münasibətləri həyata keçirilir. İki şəhər arasında ticarət-iqtisadi, mədəniyyət, təhsil, elm və texnika, səhiyyə, idman, turizm və digər sahələrdə ikitərəfli əməkdaşlığın fəal inkişaf etdirilməsi və genişləndirilməsi nəzərdə tutulur. Çindao təqribən 10 milyona yaxın əhalisi və 191 milyard dollar həcmində ümum daxili məhsulu ilə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yük daşımaları baxımından Çinin 5 ən önəmli dəniz limanından birinin, eləcə də "Haier" və "Hisense" kimi nəhəng Çin şirkətlərinin yerləşdiyi şəhərdir. Bu addım Gəncə şəhərində istehsal olunan məhsulların Çindaoya və onun vasitəsilə Çin bazarına daxil olmasına geniş imkanlar açır.

Başqa bir nümunə isə Bakı şəhərinin Qaradağ rayonu ilə Çinin Şenzen şəhəri arasında qarşılıqlı iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsi üzrə işlərin həyata keçirilməsidir.

Bu il sentyabrın 5-də Pekin şəhərində Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisi (CIFTIS) çərçivəsində "Azərbaycan-İnvestisiya və Ticarət İmkanları" forumu keçirildi. Forum çərçivəsində "Made in Azerbaijan" brendinin keyfiyyətli və rəqabətqabiliyyətli qida və içki məhsulları və ölkəmizin turizm potensialı təqdim edildi. Tədbirə iqtisadiyyatın müxtəlif sahələrindən olan 60-dan çox şirkət və qurum nümayəndəsi qatılmışdı. Xatırladaq ki, 2021-ci ildə iki ölkə arasında xidmətlər ticarətinin həcmi 28 faiz artmışdır.

İki ölkə arasında mədəni əlaqələrin tarixi Orta əsrlərə gedib çıxır. Bu gün isə mədəniyyətin müxtəlif sahələrində əlaqələr intensiv inkişaf etməkdədir. Təhsil sahəsində münasibətlər sabit və davamlı olaraq genişlənir. Xüsusilə ölkəmizdə Çin üzrə mütəxəssislərin hazırlanmasına mühüm diqqət yetirilir. Bu sahədə BDU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun rolunu qeyd etmək olar. Bu elm və təhsil mərkəzi həqiqətən də iki ölkə arasında təhsil, elm və mədəniyyət sahəsində bir körpü missiyasını inamla yerinə yetirir. İnstitutun fəaliyyət göstərdiyi müddət ərzində 6 mindən çox tələbə burada təşkil edilmiş dil kurslarında çin dilini öyrənmişlər. İnstitutun ayırdığı təqaüdlərlə 200-dən çox tələbə Çinin müxtəlif nüfuzlu universitetlərində təhsil almışlar. Bu institut indiyədək 350-dən çox elmi konfransa, müsabiqəyə, yubileyə və tarixi günlərin qeyd olunmasına evsahibliyi etmişdir. Hazırda Azərbaycanda bu institutun 11 filialı fəaliyyət göstərir.

Eyni zamanda Pekin Xarici Dillər Universitetində fəaliyyət göstərən Azərbaycan dili fakültəsi ilə yanaşı, Çinin Anhoy və Hucou universitetlərində yaradılmış "Azərbaycanşünaslıq" mərkəzləri də ölkəmizin Çində tanıdılması və tədqiq olunması işində əhəmiyyətli rol oynayır.

Azərbaycan ilə Çin arasında ədəbi əlaqələrdən bəhs edərkən hələ 1954-cü ildə Çinin qocaman şairi Ke Çyunpinin Azərbaycana səfərini qeyd etmək yerinə düşərdi. Onun yazmış olduğu "Bakı" adlı şeirdə deyilirdi:

*Seyr elədik biz Qafqazın başıqarlı dağlarını,*
*Coşqun axan çaylarını, bir də yaşıl bağlarını,*
*Gəlib çatdıq səhər çağı sahilinə göy Xəzərin,*
*Biz qovuşduq vüsalına Bakı adlı bir şəhərin.*

Maraqlı haldır ki, müxtəlif festivalların təşkili də iki ölkə xalqları arasında yaxınlaşmaya səbəb olur. Belə ki, bu ilin yanvarında "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" (OCEP) çərçivəsində Bakının Nizami rayonundakı şəhid Namiq Həmzəyev adına 238 saylı tam orta məktəbdə Azərbaycan-Çin mədəniyyət festivalı keçirildi.

Tayhu Dünya Mədəniyyət Forumunun 2021-ci ilin 11-13 oktyabr tarixlərində keçirilmiş 6-cı illik sessiyasında Azərbaycan fəxri qonaq ölkə statusunda iştirak etmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev foruma təbrik məktubu ünvanlamışdır. Forum çərçivəsində həmçinin Heydər Əliyev Fondunun həmtəşkilatçılığı ilə Çinin Anhoy əyalətinin Benbu şəhərində yerləşən "Qədim Məskənlər Sərgi Parkı"nda "Azərbaycan Mədəniyyətinə Pəncərə" adlı milli pavilyonun açılışı olmuşdur.

Sözsüz iki dövlətin və iki xalqın birbirilə əməkdaşlığının gücləndirilməsində, humanitar əlaqələrin genişləndirilməsində obyektiv amillərlə yanaşı, subyektiv amillər də mühüm rol oynayır. Bu sahədə elm və mədəniyyət xadimlərinin, o cümlədən hər iki ölkədə fəaliyyət göstərən diplomatların rolu xüsusilə vurğulanmalıdır. Bu mənada Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Minin fəaliyyəti təqdirəlayiqdir.

Həyatın özü və tarixi reallıqlar iki ölkə arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı inkişaf etdirməyi diktə edir. Hər iki ölkə əlverişli coğrafi mövqeyə malikdir. Tarixi İpək yolu boyunca Orta əsrlərin dəvə karvanlarını bu gün dəmir yolu nəqliyyatı əvəz edir.

Həm Azərbaycanın, həm də Çinin geosiyasi və geoiqtisadi əhəmiyyəti onların qlobal iqtisadi layihələrdə birgə iştirakını zəruri edir. İnanmaq olar ki, Çinin böyük və uğurlu islahatlar təcrübəsindən Azərbaycan tərəfi də yararlanacaq. Qarşılıqlı faydalı ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi iki ölkə arasında strateji tərəfdaşlığın güclənməsinə müsbət zəmin yaradır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşları arasında görüş keçirilib

Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşları arasında gömrük nəzarətinin təşkili, gömrük sahəsində milli qanunvericiliklərin tələbləri və icra mexanizmləri ilə bağlı onlayn formatda görüş keçirilib.



Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, görüş DGK və Türkiyənin Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair tədbirlər planına müvafiq olaraq təcrübə və məlumat mübadiləsi məqsədilə baş tutub.

Görüşdə beynəlxalq daşımalarda istifadə edilən konteynerlərin müvəqqəti idxal şərtlərinə dair məsələlər müzakirə olunub, eləcə də Türkiyə gömrük xidmətinin mütəxəssisləri "Malların son istifadə, saxlanc və daxildə emal xüsusi gömrük prosedurları" mövzusunda təqdimatlarla çıxış edərək, Türkiyə təcrübəsinə dair məlumatlar veriblər.

# "Birinci zabit komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib









Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cari ilin hazırlıq planına uyğun olaraq "Birinci zabit komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib. Mərasimdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Buraxılış mərasimində çıxış edənlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu kimi kursların əhəmiyyətindən danışıblar, kursu müvəffəqiyyətlə bitirənlərə gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda hərbi qulluqçulara sertifikatlar təqdim olunub, şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# Sidney şəhərində Ermənistanın təxribatlarına etiraz edilib

Avstraliyanın Sidney şəhərində Azərbaycan icmasının Ermənistanın son təxribatları ilə əlaqədar dinc aksiyası keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Sidney Opera Teatrının və Harbor-Bric körpüsünün yaxınlığında gerçəkləşdirilən aksiya Avstraliya Azərbaycanlıları Assosiasiyasının sədri Mikayıl Oytanın rəhbərliyi ilə təşkil edilib.

Azərbaycan, Türkiyə və Avstraliya bayraqlarının dalğalandırıldığı aksiya zamanı "Qarabağ Azərbaycandır!", "Erməni təcavüzünü dayandır!", "Erməni təcavüzünə etiraz edirik!", "Ermənistan, torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənistan, sülh müqaviləsini imzala!", "Ermənistan faktları təhrif edir və dünya ictimaiyyətini aldadır!", "Ermənistan sülhü rədd edir, müharibəni seçir!", "Azərbaycan torpaqlarında erməni əsgərinə YOX!", "Ermənistanın minaları vətəndaşları öldürür!", "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir!", "Ermənistan minaları = müharibə cinayətləri!" şüarları əks olunmuş posterlər nümayiş etdirilib.

44 günlük Vətən müharibəsi dövründə Ermənistanın təcavüzü nəticəsində 11 azərbaycanlı uşağın öldürüldüyünə, 36 uşağın yaralandığına diqqət cəlb edilib.

# *Hande HARMANCI:* "İlkin səhiyyə xidmətinin gücləndirilməsi layihəsini münaqişədən zərər çəkən ərazilərdə həyata keçirmək istəyirik"



Avropa İttifaqının maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı və UNICEF-in birgə həyata keçirəcəyi ilkin səhiyyə xidmətinin gücləndirilməsi layihəsinin yerli səhiyyə tərəfdaşları ilə müzakirəsinin əsas məqsədi Azərbaycanda 2023-cü ildən etibarən başlayacaq yeni layihənin müzakirəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib. "Səhiyyə işçilərinin iş potensialının artırılması vacibdir. Layihəyə əsasən müəyyən ərazilər seçiləcək. Bu ərazilərdə infrastrukturun gücləndirilməsi, xüsusilə qeyri-yoluxucu xəstəliklərdən əhalinin qorunması və xəstəliklərin daha tez müəyyən edilməsi layihənin əsas məqsədidir".

ÜST nümayəndəsi bildirib ki, layihə, əsasən, Azərbaycanın ucqar rayonlarında və paytaxtda həyata keçiriləcək. Buna bənzər bir digər layihə Şamaxı rayonunda həyata keçirilib və olduqca uğurlu alınıb. "Bizim əsas planımız isə daha ucqar ərazilərdə layihənin gərçəkləşdirilməsidir. Təxminən, 5 rayonda keçirməyi planlaşdırırıq. Layihəni münaqişədən zərərçəkən ərazilərdə həyata keçirmək istəyirik. Layihəyə əsasən səhiyyə işçiləri ehtiyaclara uyğun olaraq müəyyən kurslara cəlb olunacaq. Biz kurs verəcək işçilərin potensialını artırmışıq. Həkimlərin təkmilləşdirilməsi üçün Azərbaycan Tibb Universiteti ilə birgə işləyirik", - deyə Hande Harmancı bildirib.






# İŞİMİZ, GÜZƏRANIMIZ

İqtisadiyyatımız Vətən müharibəsi günlərində

## Daha bir qələbə TAP-ın tikintisinin yekunlaşması oldu

Vətən müharibəsinin davam etdiyi, ordumuzun zəfərdən zəfərə doğru irəlilədiyi günlərdə daha bir qələbənin müjdəsini aldıq. Bu, Azərbaycanın neft-qaz tarixində qazanılan, bir-birinin ardınca gerçəkləşən qlobal layihələr salnaməsinə yazılan bir qələbə idi. Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikintisinin yekunlaşdığı xəbər verildi.



Həmin gərgin günlərdə də Azərbaycan qurub-yaradır, iqtisadiyyatının inkişafını dayandırmırdı. Neftçi də, əkinçi də, inşaatçı da iş başında idi. TAP-ın tikintisinin yekunlaşması sanki bütün bu işlərin rəmzi idi.

TAP Azərbaycanın təşəbbüsçüsü və aparıcı qüvvəsi olduğu "Cənub qaz dəhlizi" layihəsinin ayrılmaz hissəsi, dörd seqmentindən sonuncusudur. Bu kəmər qısa müddətdə Avropanın enerji təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edib.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyacaq 3500 kilometrlik "Cənub qaz dəhlizi" üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP "Şahdəniz-2" qazını Yunanıstanın və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçirərək İtaliyanın cənubuna çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşir.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Həmin vaxtdan da tikinti işlərinə başlanıb. Kəmərin çəkilişi inşaatçılardan böyük səriştə və məsuliyyət tələb edib. Çünki xəttin keçdiyi yol fərqli coğrafi şəraitdə yerləşir. Marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdədir. Ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdən keçir.

Trans-Adriatik Qaz Boru Kəmərinin bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları da var. Tikinti işlərinin çətinliyi həm də onunla bağlı idi ki, digər kəmərlərdən fərqli olaraq, TAP-ın bir hissəsi suyun altından keçir. Xəttin diametri əsasən 48 düymdür, yalnız dənizdən keçən hissəsində 37 düymlük borular düzülüb.

TAP-ın tikintisinin uğurla başa çatması bir daha sübut etdi ki, "Şahdəniz" konsorsiumu Azərbaycan qazını Avropaya nəql etmək üçün iddialı olan 4 kəmərdən məhz bu xətti seçməkdə heç də səhv etməyib. Konsorsium bu seçimi hələ 2013-cü ildə edib.

Seçim prosesində TAP səkkiz şərtə görə üstünlük qazanıb. Bunlardan birincisi kəmərin kommersiya səmərəliliyidir. İkinci, üçüncü və dördüncü əsas şərtlər layihənin icra mümkünlüyü, həmçinin maliyyə baxımından icra mümkünlüyü və texniki layihələndirmədir. Daha bir vacib məsələ kimi tənzimləmə və şəffaflıq götürülüb. Altıncı amil kəmərin təhlükəsizliyi və səmərəli istismarının mümkünlüyüdür. TAP eləcə də digər kəmərlərdən genişləndirmə imkanlarının olduğuna görə fərqlənir. Nəhayət, qiymətləndirmə zamanı ictimai maraqlarla bağlı faktorlar da nəzərə alınıb.

TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Layihənin uğurla tamamlanmasında Azərbaycanın rolu şəksizdir. Bu işdə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən başlayaraq ildə bir dəfə Bakıda keçirilən iclasları mühüm əhəmiyyət daşıyıb. Belə ki, bu toplantılarda "Cənub qaz dəhlizi"nin digər seqmentləri kimi, TAP-ın reallaşmasında ortaya çıxan məsələlər də geniş müzakirə olunub və layihə iştirakçılarının birgə səyi ilə həll edilib.

Məşvərət Şurasının toplantılarına məhz Bakının evsahibliyi etməsi onu təsdiqləyir ki, Azərbaycan layihənin aparıcı qüvvəsidir. Bu həm də ölkəmizin yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının təsdiqi, Prezident İlham Əliyevə dünyada bəslənən hörmətə aydın misaldır. Odur ki, ölkəmizin, regionun və Avropanın enerji təhlükəsizliyində önəmli əhəmiyyətə malik olan "Cənub qaz dəhlizi"nin sonuncu hissəsinin yekunlaşması həm bizim, həm də Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün mühüm hadisə kimi dəyərləndirilir.

Xatırladaq ki, TAP xətti İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır. Kəmərin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetrdir. Bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TAP-la ilk qaz istehlakçılara 2020-ci il dekabrın 31-də çatdırıldı. İki ildən az bir vaxtda Avropa 16 milyard kubmetrdən çox qazla təchiz edilib. Avropaya qaz təchizatı 2022-ci ilin sonuna 40 faiz artımla 8,2 milyard kubmetrdən 11,5 milyard kubmetrə yüksələcək.

Avropanın Azərbaycan təbii qazına tələbatı getdikcə artır. 2027-ci ilədək mavi yanacağın ixracının iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması üçün boru kəmərlərinin ötürücülük gücünün və hasilatın artırılmasına investisiyalar yatırılmalı, müqavilələr imzalanmalı və texniki tədbirlər görülməlidir.

Başqa sözlə, işğaldan azad olunmuş ərazilərimizdə həyatı bərpa edən, hər yerdə qurub-yaradan Azərbaycanın qarşısında duran vəzifələrdən biri də "Cənub qaz dəhlizi"nin, o cümlədən TAP-ın genişləndirilməsidir. Ölkəmiz layihədəki etibarlı tərəfdaşları ilə birlikdə bu vəzifənin də öhdəsindən gələcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Bakıda arıçılıq məhsullarının sərgi-satış yarmarkası fəaliyyətə başlayır

Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə oktyabrın 1-dən etibarən Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ünvanında (metronun "Gənclik" stansiyasının yaxınlığı) arıçılıq məhsullarının 22-ci Respublika Sərgi-Satış Yarmarkası fəaliyyətə başlayacaq.

Yarmarkaya hazırlıq işləri artıq yekunlaşıb və qeydiyyatı təsdiqlənmiş arıçıların bal və digər arıçılıq məhsullarının "Aqrar Tədarük və Təchizat" ASC-nin Xocəsən yolu 57 (Meyvəli bazarı) ünvanında yerləşən anbarından Sərgi-Satış Yarmarkasının keçiriləcəyi ünvana daşınması prosesi başa çatıb.

Qeydiyyatı təsdiqlənmiş arıçılar məhsullarını anbara təhvil veriblər. Anbara təhvil verilən balın və digər arıçılıq məhsullarının ümumi həcmi 120 tona yaxındır. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən arıçıların iştirakı ilə yarmarkada satışa çıxarılacaq məhsullardan nümunələr götürülərək laboratoriya şəraitində yoxlanılıb. Göstəriciləri keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğun olmayan məhsullar yarmarkada satışa buraxılmayacaq.

Xatırladaq ki, yarmarkaya qeydiyyat onlayn şəkildə bal.kendden.az saytı vasitəsilə 29 avqust saat 00:00-dan 31 avqust saat 23:59-dək həyata keçirilib. Yarmarkada arıçılara fəaliyyət göstərdikləri rayonların arıçı sayına uyğun olaraq proporsional qaydada müvafiq sayda yer ayrılıb. Bu il keçiriləcək yarmarkada növbəlilik əsasında ilk qeydiyyatdan keçmiş 250 arıçı iştirak edəcək.

Yarmarkada iştirak üçün hər bir arıçıya Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçərkən etdiyi bəyana uyğun olaraq minimum 40 arı ailəsinə malik olması tələbi qoyulub. Yarmarkada yalnız COVID-19 pasportuna malik arıçılar iştirak edəcəklər. Hər arıçı yarmarkaya maksimum 400 kiloqram bal və maksimum 30 ədəd arı şanı satışa çıxara biləcək.

Vətəndaşlar 1-20 oktyabr tarixlərində hər gün saat 09:00-dan 19:00-dək yarmarkaya gələ, keyfiyyətli və qida təhlükəsizliyi göstəriciləri yüksək olan bal və arıçılıq məhsullarını əldə edə bilərlər.

## İsmayıllıda 10 min tondan çox kartof yığılıb

İsmayıllı rayonunun torpaq mülkiyyətçiləri kartof yığımını yekunlaşdırıblar, sahələrdən 10 min 542 ton məhsul götürülüb.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, cari mövsümdə bölgədə 726 hektar sahədə kartof yetişdirilmişdi. İyun ayından etibarən məhsul yığımına başlanılmışdı. Rayon üzrə hər hektardan götürülən orta məhsuldarlıq 145 sentner təşkil edib. Bir sıra ərazilərdə, o cümlədən Qurbanəfəndi, Yuxarı Zərnava, Burovdal, Həftəsol və bir sıra digər ərazi icra nümayəndəliklərində məhsuldarlıq daha yüksək olub.

## FAO ilə birgə layihə həyata keçirilir

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) texniki işlər üzrə aparıcı mütəxəssisi Peter Pechacek və beynəlxalq ekspert James Jackelman Astarada səfərdə olmuş və rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayevlə görüşüblər.



Səfər zamanı qonaqları Hirkan Milli Parkının nümayəndəsi müşayiət etmişdir. Səfər FAO-nun Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə sazişi çərçivəsində həyata keçirilən "Biomüxtəlifliyin mühafizəsi və davamlı istifadəsi: İdarəetmənin təkmilləşdirilməsi yolu ilə Azərbaycanın xüsusi mühafizə olunan ərazilər sisteminin gücləndirilməsi" layihəsinin icrası ilə bağlı olub.

Bildirilib ki, Hirkan Milli Parkının 18 min hektarı Astara rayonunun ərazisində yerləşir. Digər qoruq və parklardan fərqli olaraq burada nadir flora və fauna zənginliyi var. Burada mövcud olan bitki və heyvan növlərinin bir çoxu Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilərək qorunur. Milli Parkın ərazisi unikal təbiəti ilə seçildiyindən turistlər üçün də çox cəlbedicidir. Təklif olunan layihənin icrasının Hirkan Milli Parkında mövcud olan ekosistemin qorunmasında əhəmiyyətini nəzərə alaraq bu sahədə qarşılıqlı işgüzar əlaqələrin qurulmasına mümkün olan köməyin göstəriləcəyi vurğulanıb.

FAO-nun əməkdaşları Astaranın Azərbaycanın çox gözəl və səfalı guşəsi olduğunu söyləmiş, layihə çərçivəsində görülmüş və görüləcək işlər barədə məlumat veriblər. Hirkan Milli Parkının ərazisində məskunlaşmış sakinlərin imkanlarından buradakı bitki və heyvanlar aləminin qorunmasında istifadənin mümkünlüyündən danışaraq əməkdaşlığın genişləndirilməsi və gələcəkdə həyata keçiriləcək digər tədbirlər barədə veriləcək təkliflərin müsbət həlli üçün çalışacaqlarını bildiriblər.

*"Azərbaycan"*

## Sənaye Məhəlləsinin məhsulları əsasən daxili bazarlara göndərilir

İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) dövlət başçısının 2021-ci il 22 yanvar tarixli fərmanı ilə yaradılmışdır.

Agentlik ölkədə fəaliyyət göstərən 6 sənaye parkının (Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları), 4 sənaye məhəlləsinin (Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələri) və 51 aqroparkın fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayır və həyata keçirilməsini təmin edir.

Bundan başqa, agentliyin nəzdində Peşə Təhsil Mərkəzi də fəaliyyət göstərir və burada sənaye sahəsi üçün yüksəkixtisaslı kadr hazırlığı həyata keçirilir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Neftçala Sənaye Məhəlləsi dövlət başçısının 2015-ci il 2 fevral tarixli sərəncamına əsasən yaradılıb. 2017-ci il sentyabrın 24-də Prezident İlham Əliyevin iştirakı ilə Sənaye Məhəlləsinin açılış mərasimi keçirilib. Məhəllə 10 hektar ərazini əhatə edir. Sənaye Məhəlləsində indiyədək 7 sahibkarlıq subyektinə - ("Aqroplanet" MMC (orqanik maye gübrələrin istehsalı), "Azərbaycan yem emalı" MMC (soya və ekstruziya olunmuş pambıq jmıxı istehsalı), "Azproduct" MMC (balıq və dəniz məhsullarının emalı və konservləşdirilməsi), "Gedik Kaynak" MMC (Elektrod istehsalı və satışı), "Azkron" MMC (avtomobil istehsalı), "Toğrul-2008" MMC (polietilen boru istehsalı), "KƏHF" MMC-yə (balıq yemi istehsalı)) rezidentlik statusu verilib. Bunlardan 5-i artıq fəaliyyət göstərir.

Neftçala Sənaye Məhəlləsinə rezidentlər tərəfindən 49 milyon manatdan çox investisiya yatırılıb və burada 500-dək daimi iş yeri yaradılıb. Sənaye Məhəlləsinin rezidentləri tərəfindən indiyədək 132 milyon manatdan çox satış həyata keçirilib. İstehsal olunan məhsullar əsasən daxili bazarın tələbatının ödənilməsinə yönəldilib.

*"Azərbaycan"*



## Ekoloji təmiz məhsul istehsalı üzrə yeni dövlət standartı qəbul edilib

"Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının istehsalı, emalı, markalanması və satışı. Rəhbəredici tələblər" AZS 921:2022 yeni dövlət standartı qəbul edilib.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib ki, standart layihəsi ekoloji təmiz kənd təsərrüfatı məhsullarının standartlaşdırılması üzrə Texniki Komitənin təqdimatı əsasında hazırlanıb. Dövlət Xidmətinin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" AZSTAND publik hüquqi şəxs tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə Normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Standartın tələbinə əsasən, ekoloji təmiz məhsulların istehsalı zamanı kimyəvi-sintetik (süni) maddələrin istifadəsi minimuma endirilməli, istehlakçıların sağlamlığının və ətraf mühitin qorunmasına diqqət yetirilməlidir.

Qeyd edək ki, yeni standart qida məhsullarının tələblərə uyğun istehsal və emalının tənzimlənməsinə, keyfiyyətinin yüksəldilməsinə, rəqabətqabiliyyətli ekoloji təmiz məhsulların bazara çıxarılmasına imkan yaradacaq.

## Ötən ay əcnəbilər ölkəmizdə bank kartları vasitəsilə 214,6 milyon manatlıq əməliyyat aparıblar

Avqustda xarici vətəndaşların bank kartları vasitəsilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 214,6 milyon manat təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın sentyabr sayında bildirilir ki, yanvar-avqust aylarında isə əcnəbilər bank kartları vasitəsilə 1,5 milyard manatlıq əməliyyat aparıblar.

## 8 ayda "Azexport.az" portalına 321,2 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub

Cari ilin yanvar-avqust aylarında "Azexport.az" portalına 321,2 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın sentyabr sayında bildirilir ki, bu ilin avqustunda "Azexport.az" portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 32,8 milyon dollardır. Avqustda "Azexport.az" portalına edilən ixrac sifarişlərinin tərkibində alma, xurma, pambıq yağı, fındıq ləpəsi, günəbaxan yağı, un, qarğıdalı yağı, tütün, tibbi tənzif, fındıq qabığı və sair məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvarından 2022-ci il avqustun 30-dək (68 ay ərzində) "Azexport.az" portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 3,12 milyard dollar olub.

# Mexikoda keçirilən sessiyada tezliklə işğaldan azad edilmiş ərazilərimizə texniki missiya göndərməklə bağlı UNESCO-ya çağırış ünvanlanıb



Sentyabrın 29-da Mexiko şəhərində davam edən "Mondiacult 2022" konfransı çərçivəsində Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov "İrs və mədəni müxtəliflik böhran dövründə" mövzusuna həsr olunmuş sessiyada çıxış edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, A.Kərimov çıxışında tədbir iştirakçılarının diqqətini Azərbaycanın 30 ilə yaxın dövr ərzində erməni işğalı altında olmuş ərazilərində Ermənistan tərəfindən törədilmiş etnik-mədəni soyqırımına yönəldib. İşğal dövründə Azərbaycanın mədəni irsinə qarşı misli görünməmiş sistemli və məqsədyönlü əməllər nəticəsində çox sayda məscidlər, tarixi abidələr, müxtəlif mədəniyyət müəssisələrinin tamamilə dağıdıldığı qeyd edilib. Həmçinin ölkəmizin tarixi-mədəni irsinə qarşı bu soyqırımı əməllərinin beynəlxalq təşkilatlar tərəfindən sükutla qarşılandığı təəssüflə vurğulanıb.

Nazirin çıxışında Azərbaycanın öz torpaqlarını işğaldan azad etdikdən sonra genişmiqyaslı bərpa işlərinə başladığına diqqət çəkilib, bu kontekstdə mədəni irsin bərpasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Nazir bu baxımdan Azərbaycan ərazisində yerləşən mədəni irsin ölkəmizin mədəni müxtəlifliyini əks etdirdiyini bildirib və işğaldan azad edilmiş ərazilərdə bərpa prosesi çərçivəsində mənşəyindən asılı olmayaraq bütün mədəni və dini abidələrin qorunması və bərpasının vacibliyini ifadə edib. A.Kərimov həmçinin tezliklə işğaldan azad edilmiş ərazilərimizə texniki missiya göndərməklə bağlı UNESCO-ya çağırış ünvanlayıb.

Çıxışda qeyd olunanlarla yanaşı, ölkəmizin yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışına dair məlumat verilib, bu təşəbbüsün 2008-ci ildən Azərbaycan tərəfindən irəli sürülmüş, mədəniyyətlərarası dialoqu təşviq edən "Bakı Prosesi"nin əlavə ölçüsü olduğu bildirilib. Sözügedən qlobal çağırışın dayanıqlı sülhün mədəniyyətə töhfəsinə vurğu etməklə, dünyanın müxtəlif bölgələrində mövcud postmünaqişə vəziyyətlərində sülhün təşviqi modeli kimi tətbiq edilə biləcəyinə istinad edilmişdir.

Sessiya zamanı nazir A.Kərimov həmçinin ölkəmizin Qoşulmama Hərəkatının (QH) sədri qismində QH ölkələri adından bəyanat da səsləndirib. Bəyanatda QH ölkələri irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və dözümsüzlüyün bütün formalarını pisləyir, mədəni mülkiyyətin qorunması üçün milli, regional və beynəlxalq təşəbbüslərin əhəmiyyətini qeyd edir.

# Beynəlxalq konfrans çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilib

Mexiko şəhərində davam edən "Mondiacult 2022" konfransı çərçivəsində mədəniyyət naziri Anar Kərimov Albaniyanın mədəniyyət naziri Elva Marqariti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğuna vurğulanıb. Bu kontekstdə hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin xalqlar arasında mədəni bağların gücləndirilməsinə töhfə verə biləcəyi xüsusi qeyd edilib. 2023-cü ildə Azərbaycanla Albaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulanıb, E.Marqariti Albaniya tərəfinin növbəti ilin ilk yarısında bu ölkədə Azərbaycana həsr ediləcək mədəniyyət həftəsinə evsahibliyi etməyə hazır olduqlarını bəyan edib. Görüşdə, həmçinin iki ölkə arasında UNESCO çərçivəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb, mədəniyyət müəssisələri, teatr, kino və yaradıcı sənayelər sahəsində əməkdaşlığın inkişafının zəruri ola biləcəyi qeyd olunub.

Həmin gün nazir Anar Kərimov Andorranın mədəniyyət və idman naziri Silvia Riva Qonzalezlə də görüşüb. Görüş zamanı A.Kərimov Andorranın "Youth ArtCamp Shusha and Baku" layihəsinə verdiyi dəstəyə görə təşəkkürünü bildirib, bu layihənin ölkələr arasında mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli platforma olduğunu qeyd edib. Andorralı nazir ölkəsinin bu vacib sahədə Azərbaycanla əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduğunu bəyan edib.

Bununla yanaşı, UNESCO çərçivəsində əməkdaşlıq və birgə fəaliyyətlər üçün geniş imkanların olduğuna da diqqət çəkilib. Həmçinin Azərbaycan hökumətinin təşəbbüsü ilə irəli sürülmüş "Bakı Prosesi" və onun vacib yeni ölçüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışına dəstək və bu çərçivədə birgə layihələrin reallaşdırılmasının önəmi vurğulanıb.

"Mondiacult 2022" konfransı çərçivəsində nazir Anar Kərimovun UNESCO Baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Ernesto Ottone ilə də görüşü olub. Görüş zamanı UNESCO-Azərbaycan münasibətlərinin hazırkı durumu, gündəlikdə duran cari məsələlər, əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Nazir A.Kərimov Azərbaycanın təşkilatla əməkdaşlıqda maraqlı olduğunu, bir sıra vacib istiqamətlərdə, xüsusilə də mədəniyyətlərarası dialoq və UNESCO-nun da tərəfdaşı olduğu "Bakı prosesi" çərçivəsində davamlı fəaliyyətin təmin edilməsinin vacibliyini vurğulanıb.

Bununla yanaşı, A.Kərimov UNESCO-nun öz mandatına uyğun fəaliyyət göstərməsinin vacibliyini vurğulayıb. İndiki dövrə kimi təşkilatın işğaldan azad edilmiş ərazilərimizə səfər etməməsinin və ümumiyyətlə səfərlə bağlı Azərbaycanın müraciətinin cavabsız qoyulmasının Azərbaycan cəmiyyətində haqlı anlaşılmazlıq və suallar doğurduğunu qeyd edən nazir tezliklə UNESCO-nun bu texniki səfəri reallaşdırması üçün çağırış edib. UNESCO rəsmisinə, həmçinin ölkəmizin təşəbbüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışına dair məlumat verilib, dünyanın müxtəlif bölgələrində sülh quruculuğu fəaliyyətlərinə töhfə vermək niyyətini bəyan etmiş bir təşkilat kimi UNESCO-nun ölkəmizin sözügedən təşəbbüsünə soyuq münasibət nümayiş etdirməsinin məyusluq doğurduğu diqqətə çatdırılıb.

E.Ottone öz növbəsində təmsilçisi olduğu təşkilatın qeyd olunan məsələlərlə bağlı Azərbaycanla təmasların davam etdirilməsinə, eyni zamanda yaradıcı iqtisadiyyat kimi yeni sahələrdə əməkdaşlıq imkanlarının və mümkün fəaliyyətlərin yaxından araşdırılmasına hazır olduqlarını bəyan edib.

## 1 Oktyabr Beynəlxalq Musiqi Günüdür

# Dünya musiqisevərlərinin bayramı

Dünya qədər qədimdir. Yaşı bilinmir. Bəlkə də elə təbiətin özü yaradıb musiqini. Torpağa qovuşan yağış damlalarının ahəngdar səsi, yamyaşıl meşələrin əsrarəngiz pıçıltısı, suların həzin zümzüməsi təbiətin musiqi əsərləridir. Bəlkə də elə insanlar bu səslərin sehrinə düşüblər. Musiqi bəstələməyi təbiətdən öyrəniblər...

### İnsanın qəlbini fəth edən, qeyri-adi qüvvə

Tarixin izləri, tədqiqatçıların, musiqişünasların araşdırmaları bəşəriyyətin musiqi ilə tanışlığının çox qədim dövrlərdən başladığını təsdiq edir. Afrika mağaralarında aşkar olunan qayaüstü rəsmlərdə əlində musiqi aləti tutmuş insanların təsviri var. Bəşəriyyətin ilk sivilizasiya məskənlərindən biri olan Azərbaycanda da musiqi tarixinin çox qədimlərə gedib çıxdığı məlumdur. Tədqiqatlardan bəllidir ki, Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Eyni zamanda Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olunub. Araşdırıcılar bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğunu qeyd ediblər.

Qədim yaşayış məskənlərindən biri də Çinin arxeoloqları 2000-ci ildə 2 min illik tarixə malik olan musiqi alətləri muzeyini aşkara çıxarıblar.

Zamanın tufanlarından keçərək bu günümüzə gəlib çatanlar təsdiq edir ki, musiqinin böyük mənəvi gücü, intəhasızlığı hələ qədim zamanlardan insanlara böyük təsir göstərib. O zaman ki, bəşər övladları hələ icma halında yaşayırdılar. Mağaralar evləri, qayalıqlar məskənləri idi. Nə dünyanı dəyişməyə gücü yetən böyük kəşfləri, nə həyatlarına, yaşam tərzlərinə təsir göstərən icadları vardı. Ancaq musiqi dilini yaxşı bilirdilər. Bir-biriləri ilə də, təbiətlə də ən çox bu dildə danışardılar. Zaman keçdikcə musiqi bəşər övladlarının həyatlarının ayrılmaz bir hissəsinə çevrildi. Min illərdir ki, musiqinin bir möcüzə olduğunu, insanın ruhuna, duyğulara, əhvali-ruhiyyəsinə böyük təsir göstərdiyi etiraf edilir. Qədim yunanlar onu Allahın töhfəsi hesab edirdilər, musiqiyə insanın qəlbini fəth edən, qeyri-adi qüvvə kimi yanaşırdılar.



Musiqi ruhun qidasıdır, deyirlər. Hətta təbabətdə də ondan istifadə olunur. Hələ qədim zamanlardan təbiblər belə hesab edirdilər ki, musiqi insan orqanizminə, xüsusilə əsəb sisteminə müsbət təsir göstərir. Bu səbəbdən bəzi xəstəliklərin müalicəsində dərmanlarla bərabər, musiqi əsərlərindən istifadə edilməsini gərəkli sayıblar. Bu üsuldan - musiqi ilə müalicədən qədim zamanlardan istifadə etməyə başlayıblar. Qədim Misirdə və Yunanıstanda həkimlərin xəstələri səslərlə müalicə etdikləri məlumdur. Qədim çinlilər isə qeyd edirdilər ki, musiqi ilə bütün xəstəlikləri müalicə etmək mümkündür. Onlar, hətta xəstə üçün "musiqili reseptlər" də yazırdılar.

### Dünyanın musiqi bayramı

Musiqi ömrümüzün ilk günlərindən ruhumuza yol tapır. Körpə ikən beşiyimizin başında analarımızın söylədiyi laylalarla ovunuruq, şirin yuxuya gedirik. Böyüyüb boya-başa çatırıq, dahi bəstəkarların dünyaşöhrətli, ən möhtəşəm əsərlərini sevə-sevə dinləyirik. Ancaq yenə də analarımızın həzin laylalarının yeri ürəyimizin başında olur.

Ömrümüzdən illər ötür. Musuqi ruhumuzla yol gedir. Bəzən bizimlə arzularımızın, bəzən xəyallarımızın dilində danışır. Duyğularımızla həmsöhbət, sevincimizə də, kədərimizə də şərik olur. Çünki Yer üzündə dilindən, irqindən asılı olmayaraq, bütün insanların eyni dildə danışdıqları yeganə vasitədir musiqi. Doğrudur, dünyada hər bir xalqın özünəməxsus musiqi mədəniyyəti mövcuddur. Ancaq musiqinin dili birdir. Hər kəs onu anlaya bilir. Odur ki, müəlliflərinin hansı xalqın övladları olmasından, dünyanın hansı məkanında, hansı zamanda yaranmasından asılı olmayaraq, yaxşı musiqi əsərləri, əslində, bütün insanlarındır.

Artıq uzun illərdir ki, təqvimdə dilindən və irqindən asılı olmayaraq, bütün insanların ümumi bir musiqi bayramı günü də var. Beynəlxalq Musiqi Günü UNESCO-nun qərarı ilə 1975-ci il oktyabrın 1-də təsis olunub.

Hər il dünyanın hər yerində bu əlamətdar gün - musiqi bayramı istedadlı musiqiçilərin və incəsənət kollektivlərinin iştirak etdikləri möhtəşəm konsert proqramları ilə qeyd edilir. Beynəlxalq Musiqi Günündə yalnız bir xalqın, bir ölkənin mənəvi sərvəti deyil, dünya musiqi xəzinəsinin inciləri hesab edilən musiqi əsərləri səsləndirilir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## 1 Oktyabr Beynəlxalq Ahıllar Günüdür

# Dövlət ahılların ən böyük himayəçisidir

Ötən əsrin 90-cı illərindən etibarən oktyabrın 1-i dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd edilir. Bu əlamətdar gün 1990-cı il dekabrın 14-də BMT-nin Baş Assambleyasının qətnaməsinə əsasən təsis edilib. Beynəlxalq Ahıllar Gününün qeyd edilməsinin başlıca məqsədi ailə və icmaların həyatında ahıl və yaşlıların iştirakını fəallaşdırmaq, onların hüquq və ehtiyaclarını diqqətə çatdırmaqdır.



Ümummilli Lider Heydər Əliyev tərəfindən ahılların sosial müdafiəsinin diqqətdə saxlanılmasının, onlara xüsusi qayğının göstərilməsinin nəticəsidir ki, Beynəlxalq Ahıllar Günü 1993-cü ildən başlayaraq hər il ölkəmizdə də qeyd olunur.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunur. Statistikaya əsasən, ölkəmizdə ahılların sayı təxminən 450 min nəfərdir.

### Ahıllara qayğı sosial siyasətin prioritetlərindəndir

Ahıl həyata rəng qatan, örnək olan insandır. Onların həyat təcrübəsindən bəhrələnmək nəsillər arasında körpü yaratmaq üçün çox zəruridir. Ahıllarla söhbət etmək, onların məsləhətlərini dinləmək varislik əlaqəsini bərpa etmək baxımından xüsusilə gənc nəslə fayda verir.

Ölkəmizdə aparılan davamlı sosial islahatlar nəticəsində həssas əhali qruplarından olan şəxslərin, o cümlədən tənha ahılların sosial müdafiəsi dəfələrlə gücləndirilib. Bu kateqoriyadan olan vətəndaşlarımız hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində son illərdə müasir tələblərə uyğun şərait yaradılıb. Beşmərtəbəli 170 yerlik əlavə korpus istifadəyə verilməklə çarpayı sayı 300-ə çatdırılıb. Sakinlərin yaşayışı, keyfiyyətli sosial xidmətlərlə əhatə olunmaları, asudə vaxtlarını mənalı keçirmələri üçün şərait yaradılıb. Müəssisədə kitabxana və idman zalları, müəyyən əl işləri hazırlamaq üçün emalatxanalar və sair ahılların istifadəsindədir. Hazırda sosial xidmət müəssisəsində təxminən 200 ahıl yaşayır.

Həmçinin daimi olaraq əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə sosial xidmətçilər tərəfindən evdə səyyar xidmətlər göstərilir. Sosial xidmətçilər tənha ahıl və fiziki məhdudiyyətli şəxslərin evlərinə gedərək onlara ev təsərrüfatında, əsas tələbat mallarının alınması və digər işlərdə kömək göstərirlər.

Statistikaya əsasən, cari ildə tənha və əlilliyi olan 6185 nəfərə evlərində sosial-məişət xidmətləri göstərilib ki, onlardan 5456 nəfərin yaşı 70 və yuxarı olanlardır.

### Əmək pensiyaları ilbəil artırılır

2006-cı ildən etibarən ölkəmizdə tətbiq edilən sığorta-pensiya modeli müasir dünya standartlarına cavab verir, ən mühüm elementləri özündə birləşdirir. Bu sahədə həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar, maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Yeni sığorta-pensiya sistemində pensiyaların artırılması, bazar iqtisadiyyatının tələblərinə uyğun dəyişdirilməsi mövcud maliyyə imkanlarımızın, xüsusilə, əmək pensiyaçıları arasında ədalətli bölgüsünə imkan verir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə əmək pensiyaçılarının əsas hissəsini ahıl şəxslər təşkil edir.

Ötən beş ildə Prezident İlham Əliyev yaşa görə əmək pensiyasının baza və sığorta hissəsinin artırılması ilə bağlı dəfələrlə sərəncamlar imzalayıb. Beləliklə, yeni sistemin tətbiqindən sonra əmək pensiyalarının minimum və orta aylıq məbləği təxminən 3-4 dəfə artıb.

İkinci Dünya müharibəsi iştirakçısı olmuş ahıl vətəndaşlar da daim qayğı ilə əhatə olunur, Prezidentin aylıq təqaüdləri ilə təmin edilirlər. Müharibə iştirakçısı olmuş həmin vətəndaşların təqaüdlərinin məbləği ötən dövrdə dəfələrlə artırılıb, pensiyalarına qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlavələr hesablanıb. Hər il 9 May Qələbə Günü ərəfəsində dövlət başçısının sərəncamları ilə həmin kateqoriyadan olan ahıllara birdəfəlik maddi yardımlar ödənilir. Ötən illər ərzində dövlət tərəfindən İkinci Dünya müharibəsi əlillərinə mənzil və avtomobillər bağışlanıb.

### Azərbaycan təcrübəsi nümunə kimi qəbul olunur

Ahıllara göstərilən diqqət və qayğı nəticəsində onların formalaşmış güzəranı bütün cəmiyyətin yaşayış keyfiyyətinin yüksəlməsindən xəbər verir. Dövlətimiz yaşlı və ahılların ən böyük himayəçisidir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu bu ənənə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir, ahılların qayğı və problemləri daim diqqətdə saxlanılır.

Son illər "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsi çərçivəsində yaşlı insanların rifahının təşviqi, tənhalıq və sosial təcriddən uzaq olmaları, onların fəal həyat tərzi keçirmələri üçün tədbirlər reallaşdırılıb. Layihənin əsas uğurlarından biri kimi, BMT Avropa üzrə İqtisadi Komissiyasının Siyasi İcmal buraxılışında Azərbaycan fəal yaşlanma sahəsində müsbət təcrübə nümunəsi olan ölkələr sırasında təqdim edilib.

Əlbəttə ki, yaşından asılı olmayaraq heç kəs cəmiyyətdən kənarda qalmamalıdır. Bu baxımdan Azərbaycanda ahıl şəxslərə göstərilən dövlət qayğısının ildən-ilə artırılması təqdirəlayiqdir. Ölkəmizdə yaşlı və ahıl vətəndaşlara həssas münasibət hər zaman aktualdır.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Şəhidlərimiz qürurumuz, şərəfimizdir

Anım günü Azərbaycanın şəhər və kəndlərində, elm və təhsil ocaqlarında, nazirlik, şirkət və idarələrində, bir sözlə, ölkəmizin ən ucqar guşələrində belə böyük ehtiramla qeyd edilib. Vətən müharibəsində, eləcə də ərazilərimizin erməni işğalından azad edilməsi uğrunda gedən qanlı müharibədə əbədiyyətə qovuşmuş şəhidlərimiz böyük ehtiramla yad ediliblər.



Bu tədbirlər sırasında işğaldan azad edilmiş Füzuli rayonunda keçirilən Anım günü xüsusilə diqqətçəkən olmuşdur. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə Anım Gününə həsr olunmuş tədbirlərin iştirakçısı olublar. Dövlət başçısı və birinci xanım 27 Sentyabr Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar, Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Vətən savaşında ilk azad edilən Qaraxanbəyli kəndində xatirə lövhəsinin qarşısında Prezident İlham Əliyev demişdir: "Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".

Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə hər il sentyabrın 27-si ölkəmizdə Anım günü kimi qeyd edilir. Bu gün zəfər təntənəmizin başlanğıcıdır. Vətən müharibəsinin ilk günündən dinindən və irqindən asılı olmayaraq, bütün insanlar Ali Baş Komandana və Azərbaycan Ordusuna həmrəylik nümayiş etdirərək Ermənistanın 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarını azad etmək, öldürülmüş günahsız qocaların, qızların, uşaqların, bir sözlə, nahaqdan qətlə yetirilmiş insanların intiqamını almaq üçün ölüm-qalım savaşına qalxdılar. Dağıdılmış kəndlərimiz, viran edilmiş torpaqlarımız, strateji baxımdan əlverişli yüksəkliklər Azərbaycanın nəzarətinə keçdikcə ərazilərimizin işğalına son qoyulacağına, ədalətin zəfər çalacağına zabit və əsgərlərimizin inamı daha da artırdı.

Azərbaycan Ordusu Füzulinin Qaraxanbəyli kəndi istiqamətində erməni silahlılarının birinci müdafiə xəttini darmadağın edərək inamla irəlilədi. Düşmən qüvvələrinin Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasını tamamilə məhv etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun şücaəti sayəsində 44 günlük Vətən müharibəsində erməni silahlı birləşmələri darmadağın edildi. Şanlı tariximiz olan 44 günlük Vətən müharibəsində bütün gücünü səfərbər edib Ali Baş Komandanın əmrinə hər an müntəzir dayanan hərbçilərimiz düşməni doğma torpaqlarımızdan biabırcasına qovdu. Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi qələbəsi təsdiqləndi.

Füzulidə, Cəbrayılda, Zəngilanda, Hadrutda, Qubadlıda, Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə yenidən ucaldılan Azərbaycan bayrağı düşmənə gözdağı oldu. Bu döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri 2900 nəfərdən çox şəhid verdi. Şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin, xalqımızın, dövlətimizin, şanlı ordumuzun şücaəti yeniyetmə gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir. Görünən odur ki, Vətən müharibəsi, tarixi zəfər nəinki Azərbaycan xalqının övladlarının, gənclərinin, vətəndaşlarının vətənpərvərlik tərbiyəsində böyük rol oynamış, eyni zamanda Azərbaycanı sevən, çətin günlərdə onunla bir yerdə olan, ən yaxın müttəfiq rolunda çıxış edən qardaş dövlətlərin, xalqların da ovqatına müsbət təsir etmişdir.

Təsadüfi deyil ki, indi dünyanın inkişaf etmiş dövlətləri Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktikasını öyrənir. Dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, qələbəyə aparan yollar, taktiki addımlar öyrənilir. Dünyanın aparıcı kütləvi informasiya vasitələrində də dəfələrlə məlumat verilmişdir ki, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələrində İkinci Qarabağ müharibəsinin bütün aspektləri, daha doğrusu, Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktikası, terror və təxribat əməllərinin qarşısının alınması üsulları tədris edilir. Əsgər və zabitlərimizin döyüş qabiliyyətini yüksək qiymətləndirən ekspertlər bu fikirdədirlər ki, Azərbaycan Ordusunun döyüş taktikası hətta ən fövqəlgüc ölkələrin ordularında belə qeydə alınmayıb. Hücum dronlarının döyüşdəki yüksək hədəf dəqiqliyi dünya hərb tarixində bir ilkdir. Şuşanın azad edilməsi uğrunda hərbçilərimizin nümayiş etdirdiyi qeyri-adi peşəkarlıq beynəlxalq ictimaiyyətdə heyrət doğurr.

Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzulidə Anım gününə həsr olunmuş tədbirdə çıxışında xalqımıza müraciətlə demişdir ki, biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Bakıda keçirilən "ƏİK Məlumat Bazası" kursu başa çatıb

NATO-nun ölkəmizdə təşkil olunan "Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Məlumat Bazası" kursunun (OCC E&F Database Training Course) sentyabrın 29-da bağlanış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçılarına kursun yekunlarına dair brifinq təqdim olunub.

Kurs zamanı dinləyicilər iki qrup üzrə İT (İnformasiya texnologiyası) infrastrukturunun və OCC E&F proqram təminatının qurulması, idarə edilməsi, eyni zamanda proqram təminatı vasitəsilə OCC E&F tədbirlərinin planlama və qiymətləndirmə tapşırıqlarını icra ediblər.

Tədbirin sonunda dinləyicilərə müvafiq sertifikatlar təqdim olunub.

# Akademik Rəfiqə Əliyevanın 90 illiyinə həsr olunmuş konfrans başa çatıb





Sentyabrın 30-da Bakı Dövlət Universitetində (BDU) akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans öz işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, konfransın təşkilində əsas məqsəd müasir kimyanın fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif universitet və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, yeni prioritet istiqamətləri müəyyənləşdirmək, bu sahədə elmi nailiyyətləri və təcrübələri paylaşmaq, əldə edilmiş ən mühüm nəticələrin təcrübədə tətbiqinin forma, metod və yollarını tapmaq, gənclərin elmə olan marağını artırmaqdır.

Konfransda 16 ölkədən (Türkiyə, Pakistan, Almaniya, Ukrayna, Böyük Britaniya, Belçika, Portuqaliya, Litva, Çin, Hindistan, Vyetnam, Polşa, Özbəkistan, Rusiya, Qazaxıstan, Gürcüstan), həmçinin ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçılar iştirak edibər. Konfransda 4 bölmədə analitik kimya, ekoloji kimya və ətraf mühitin mühafizəsi, kimyanın tədrisi metodikası, perspektivli materialların sintezi, fiziki kimya və qeyri-üzvi materialşünaslıq kimi sahələr üzrə məruzələr dinlənilib, müzakirələr aparılıb.

Qarşılıqlı diskussiya şəraitində davam edən konfrans öz işini yekunlaşdırıb.

# ADA Universitetinə qəbulun nəticələri açıqlanıb

ADA Universitetinə bu il üçün nəzərdə tutulan qəbul planı tam dolub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, qəbul edilən 1004 tələbənin 787-si 12 bakalavr, 217-si isə 8 magistr proqramı üzrə təhsil alır. Bakalavr proqramlarına Dövlət İmtahan Mərkəzinin (DİM) imtahan nəticəsi ilə 345, "SAT" nəticəsi ilə 187, "IB" nəticəsi ilə 13, ADA Məktəbindən isə 190 tələbə qəbul edilib.

DİM imtahan nəticəsi ilə qəbul edilənlərin orta keçid balı 574, "SAT" nəticəsi ilə qəbul olanların orta keçid balı 1330 təşkil edib. Bundan əlavə, ADA Universitetinə bu il 31 ölkədən 74 xarici tələbə qəbul edilib.

Qeyd edək ki, universitet ilk dəfə bu il həmin ölkələr sırasında olan Konqo, Malayziya, Mavriki və Nikaraquadan tələbə qəbul edib.

Xarici tələbələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin tələbələri üçün təsis etdiyi təqaüd proqramından və Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən "Əlimərdan bəy Topçubaşov" adına təqaüddən yararlanırlar.

Ümumilikdə isə bu il qəbul edilən bütün tələbələrin 35 faizi müxtəlif təhsil haqqı güzəşti əldə ediblər. Həmin tələbələrdən 8-i respublika fənn olimpiadalarının qalibidir.

Əvvəlki illə müqayisədə 9 bakalavr proqramının minimum keçid balında nəzərəçarpan artım müşahidə edilib. ADA Universitetinin ən çox tələb olunan proqramlarından olan kompüter elmləri ixtisasına keçid balı bu il 604-ə qalxıb.

Qeyd edək ki, ADA Universiteti cari tədris ilinə bir sıra yeniliklərlə başlayıb. Belə ki, yeni təqdim edilən Elektrik və Elektronika Mühəndisliyi üzrə bakalavr, eləcə də Azərbaycan dilində tədris olunan Təhsil üzrə Menecment və Təlim və Tədrisin Təşkili və Metodikası üzrə magistr proqramlarına ilk tələbələrin qəbulunu həyata keçirən universitet bu il həmçinin Hüquq fakültəsinin əsasını qoyub.

# Sürixdə Avropa Xəbər Agentlikləri Alyansının Baş Assambleyası keçirilib

## Ermənistanın "Armenpress" agentliyi EANA-ya üzv qəbul edilmədi

İsveçrənin Sürix şəhərində Avropa Xəbər Agentlikləri Alyansının (EANA) növbəti baş assambleyası keçirilib. Toplantıda 2008-ci ildən alyansın üzvü olan AZƏRTAC da iştirak edib.

Alyansın prezidenti, Avstriyanın "APA" Agentliyinin rəhbəri Klemens Piq gündəlikdəki məsələləri müzakirəyə çıxararaq qeyd edib ki, alyans üzv agentliklər üçün daha faydalı olmaq, qurumda təcrübə mübadiləsini genişləndirmək istiqamətində layihələrini davam etdirəcək.

Assambleya çərçivəsində qurumun idarəedici orqanına seçkilər keçirilib. Böyük Britaniyanın "Press Association" (PA) Agentliyinin icraçı direktoru Klayv Marşalın alyansın büro üzvü kimi səlahiyyət müddətinin başa çatması ilə əlaqədar onun yerinə İtaliyanın "ANSA" Agentliyinin baş direktoru Stefano de Alessandrinin namizədliyi səsə qoyularaq qəbul olunub.

Həmçinin təşkilatın Mükəmməllik mükafatının qaliblərinə - İspaniyanın EFE və Böyük Britaniyanın PA agentliklərinə diplomlar təqdim edilib.

Baş assambleyada EANA-ya üzvlük üçün müraciət edən bir neçə ölkənin milli informasiya agentliyinin namizədliyi səsverməyə çıxarılıb. Səsvermənin nəticələrinə əsasən, Ermənistanın "Armenpress" agentliyinin namizədliyi qəbul edilməyib. "KosovoPress" Agentliyi səs çoxluğu ilə EANA-nın üzvü seçilib.

Alyansın növbəti toplantılarının Brüssel, Paris və Lissabon şəhərlərində keçirilməsi qərara alınıb. Eyni zamanda "Anadolu" Agentliyi növbəti baş assambleyalardan birinin Türkiyədə təşkil olunmasını təklif edib.

# Əfqanıstanda terrorçuluq yenidən baş qaldırır

## UNICEF və Türkiyə əfqanlara yardım edir

Taliban hərəkatının ötən il Əfqanıstanda hakimiyyətə qayıdışı 20 il davam edən müharibəyə son qoysa da, son aylarda ölkədə təhlükəsizliklə bağlı vəziyyət yenidən pisləşməyə başlayıb. Dünən paytaxt Kabilin qərbindəki Dəşti-Bərçi rayonunda yerləşən təhsil mərkəzində baş vermiş partlayış nəticəsində azı 32 nəfər həlak olub, 40 nəfər isə yaralanıb. Bu barədə Əfqanıstan hökumətindəki mənbəyə istinadən "Əl-Cəzirə" telekanalı xəbər verib.



Bundan əvvəl Kabildə kamikadzenin törətdiyi partlayış zamanı azı 20 tələbənin öldüyü və 27 nəfərin yaralandığı barədə məlumat yayılmışdı. "France 24" telekanalının xəbərinə görə, bu qeyri-insani terror aktı tələbələr imtahana hazırlaşarkən həyata keçirilib. Yerli polis idarəsinin nümayəndəsi Xalid Zadran bildirib ki, partlayış xəzərlərin azlıq təşkil etdiyi, Dəşti-Bərçi rayonunun əsasən şiə müsəlmanlarının yaşadığı məhəlləsində baş verib.

Əfqanıstanda şiə xəzərlər onilliklər ərzində təqib olunub, Taliban isə sui-istifadədə ittiham edilib. Taliblər hakimiyyətə qayıtdıqdan sonra bu cür ittihamlar yenidən qızışıb. Xəzərlər həmçinin tez-tez Talibanın düşməni olan İŞİD qruplaşması üzvlərinin hücumlarının hədəfinə çevrilirlər.

Saysız-hesabsız hücumlar ərazini viran edib. Keçən il, Taliban hakimiyyətə qayıtmazdan əvvəl, Dəşti-Bərçidə orta məktəbin yaxınlığında törədilən üç bombalı hücumda əksəriyyəti şagird olan azı 85 nəfər həlak olmuş, 300-ə yaxın adam yaralanmışdı. Bu il sentyabrın 5-də isə Kabildə, Rusiya səfirliyinin konsulluq şöbəsinin girişinin yaxınlığında terrorçu üstündəki partlayıcı qurğunu işə salıb. Hadisə nəticəsində diplomatik missiyanın iki əməkdaşı həlak olub. Ölənlər və yaralananlar arasında Əfqanıstan vətəndaşları da olub.

### UNICEF 3 su təchizatı obyektinin tikintisinə başlayır

Təhlükəsizliklə bağlı vəziyyət gərgin olsa da bəzi beynəlxalq təşkilatlar Əfqanıstanda humanitar fəaliyyətlərini davam etdirirlər. Belə ki, ölkənin Herat əyalətində UNICEF tərəfindən 18 milyon əfqanidən çox dəyəri olan üç su şəbəkəsinin tikintisinə başlanılıb. Bu barədə "8 Sobh" qəzeti yazır. Bu layihələr İncil rayonunun Tubarian və Nəvbadam kəndlərində və Quzara rayonunun Bərqanək kəndində həyata keçiriləcək. Bu layihənin başa çatması ilə Tubarian kəndində 500, Nəvbadam kəndində 1200, Bərqanək kəndində 400 ailə təmiz içməli su ilə təmin olunacaq.

UNICEF artıq Heratın digər ərazilərində də su təchizatı layihələrini həyata keçirib. Son quraqlıqlar isə kənd yerlərində ciddi su qıtlığı problemlərinə səbəb olub və təmiz içməli suyun əldə edilməsi çətinləşib.

### Türkiyə zəlzələdən zərər çəkmiş yüzlərlə evi bərpa edəcək

Türkiyə Qızıl Aypara Cəmiyyəti Əfqanıstanda baş vermiş zəlzələdən zərər çəkənlərə kömək məqsədilə Paktika vilayətinin Qayan və Barmal rayonlarında 100 evi tezliklə bərpa edəcəyini açıqlayıb.

Əfqanıstan Qızıl Aypara Cəmiyyətinin rəsmisi Maylavi İlyas Naseri "Anadolu" Agentliyinə bildirib ki, Türkiyə Qızıl Aypara Cəmiyyətinin daha əvvəl verdiyi yardım zəlzələdən sonra baş qaldıran vəba xəstəliyinin yayılmasına nəzarət etməyə kömək edib.

Türkiyənin Qızıl Aypara Cəmiyyətinin Əfqanıstandakı nümayəndəliyinin rəhbəri Fərid Əhməd Ziya da insanların qışda sığınacaq ala bilməsi üçün işləri sürətləndirməyə çalışdıqlarını bildirib. O əlavə edib ki, qurum əhalinin suya olan tələbatını ödəmək üçün ərazidə on quyu da qazacaq.

Lakin yolların keçilməz olması və Qayan qəzasının çay yatağı boyunca dağlıq ərazidə yerləşməsi zəlzələdən zərər çəkənlərə yardım göstərməyi çətinləşdirir. Buna baxmayaraq, cəmiyyət öz humanitar missiyasını tam yerinə yetirmək əzmindədir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Maraq ifadə etməyə dəvət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi (BMT QAK) məcburi köçkünlərə yönəlik üç (3) əsas sahədə layihələr hazırlamaq üçün ölkədəki potensial QHT tərəfdaşlarını müəyyən etməkdə maraqlıdır. Maraqlanan təşkilatlar aşağıdakı üç sahədən biri üçün konseptual təklif təqdim etməlidirlər:

- **Gender bərabərliyinə və bu sahədə imkanların artırılmasına dəstək;**
- **İcma səfərbərliyinə dəstək;**
- **Partlayıcı vasitələrin riskləri ilə bağlı maarifləndirmə üçün məlumatlılıq səviyyəsinin artırılmasına dəstək.**

Birdən artıq sahə ilə maraqlanan QHT-lər ayrı-ayrı konseptual təkliflər təqdim etməlidirlər. Konseptual təklifinizin tələblərə uyğunluğu və necə təqdim edəcəyinizlə bağlı təfərrüatlar "Maraq ifadə etməyə dəvətlərin" hər birində ayrıca təsvir edilmişdir.

Ətraflı məlumat üçün lütfən bu sayta daxil olun:
**https://azerbaijan.un.org/en/200617-calls-expression-interest.**

Konseptual təklif digər təsdiqedici sənədlərlə birlikdə **cümə günü, 28 oktyabr 2022-ci il tarixdə, Bakı vaxtı ilə saat 17:00-a** qədər təqdim edilməlidir.



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Calls for Expression of Interest

The Office of the United Nations High Commissioner for Refugees in Azerbaijan (UNHCR) is interested to identify potential NGO partners in the country to developed projects in three (3) key areas targeting internally displaced persons (IDPs). The interested organizations should submit a Concept note for one of the three areas:

- **Support to Gender equality and empowerment.**
- **Support for Community mobilization.**
- **Support for awareness raising for Explosive Ordinance Risk Education (EORE).**

NGOs interested in more than area need to submit separate Concept notes. Details on eligibility and how to submit your Concept note are described in each *Call for Expression of Interest* separately.

For details please visit **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest** website.

Concept note along with the other supporting documents should be submitted by **Friday, 28 October 2022 at 17:00 hours** Baku time.



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən UPS avadanlıqları üçün akkumulyatorların təchizatı və quraşdırılması işlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 26 sentyabr 2022-ci il tarixli qərarına əsasən, "AVANQARD UPS" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


# "Səma" rəqs ansamblı IV Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak edib

Türkiyənin İznik şəhərində keçirilən IV Dünya Köçəri Oyunlarında Azərbaycanın "Səma" rəqs ansamblı çıxış edib.



AZƏRTAC xəbər verir ki, ansambl "Ağacın kökü", "Qəhrəmanlar", "Qızıl döyüşçülər", "Xorum", "Cəngi" rəqslərini ifa edib.

Qeyd edək ki, IV Dünya Köçəri Oyunlarında 3000 idmançı, 1500 rəqqas, 200 nəfərlik xor və 200 nəfərlik orkestr iştirak edir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası baş prokurorunun müavini, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Şakir Şabanova əzizi

**TEYMUR TEYMUROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası baş prokurorunun müavini, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əli, Təranə, Hidayət, Gülər və Cavid Nurəlibəyovlar Mətanət, Namiq və Könül Əliyevlərə əzizləri

**MUSA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6467**
**Sifariş 2728**
**Qiyməti 40 qəpik**